ŞƏFFAFLIQ AZƏRBAYCAN

KAF
«Konstitusiya» Araşdırmalar Fondu

**“Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı”nın**

# MONITORİNQ HESABATI

***(Sentyabr 2012 – Sentyabr 2013-cü il)***

**Bakı - 2013-cü il**

Bu hesabat  ABŞ Beynəlxalq İnkişaf Agentliyinin (USAİD) dəstəyi ilə Azərbaycan Şəffaflıq Tərəfdaşlığı Layihəsi çərçivəsində hazırlanıb. Məzmuna görə, "Konstituisiya" Araşdırmalar Fondu məsuliyyət daşıyır və hesabat heç də USAİD və Amerika Birləşmiş Ştatlarının mövqeyini əks etdirmir.

"Azərbaycan Şəffaflıq Tərəfdaşlığı Layihəsi" 4 il ərzində "Şəffaflıq Azərbaycan" Korrupsiyaya Qarşı Mübarizə üzrə İctimai Birliyi,  "Konstitusiya" Araşdırmalar Fondu,  "İqtisadi Araşdırmalar Mərkəzi" İctimai Birliyi , "Azərbaycan Gənclərinin Avropaya İnteqrasiya Təşkilatı"  İctimai Birliyi və "İnternyus Azərbaycan" İctimai Birliyi tərəfindən icra olunan layihədir.

**Minnətdarlıq**

"Konstitusiya" Araşdırmalar Fondu hesabatın işlənib hazırlanmasında verdikləri töhfəyə görə bütün ekspertlərə, o cümlədən hökümət və qeyri-hökümət təşkilatlarının nümayəndələrinə öz dərin minnətdarlığını bildirir. Layihə heyəti "Şəffaflıq Azərbaycan" Korrupsiyaya Qarşı Mübarizə üzrə İctimai Birliyinə və "Azərbaycan Şəffaflıq Tərəfdaşlığı" Layihəsi üzrə bütün tərəfdaşlara, xüsusilə də sorğunun aparılmasında iştirak etmiş və QHT Platformasına qoşulmağa öz razılığını bildirmiş bütün Azərbaycan QHT-lərinə təşəkkür edir. Xüsusi təşəkkürlər "Azərbaycan Şəffaflıq Tərəfdaşlığı" Layihəsinə göstərdikləri dəyərli və davamlı dəstəyə görə USAİD Azərbaycan təşkilatının heyətinə ünvanlanır.

# MÜNDƏRİCAT


**ANNOTASİYA..........................................................................................................3**

**MONİTORİNQİN MƏQSƏDİ ...................................................................................6**

**MFP HAQQINDA.....................................................................................................6**

**MONİTORİNQ METODOLOGİYASI...................................................................9**

**MONİTORİNQ NƏTİCƏLƏRİNİN XÜLASƏSİ..................................................9**

**MFP KOMPONENTLƏRİNİN İCRA VƏZİYYƏTİ..........................................13**

**MFP-DA İCRASI 2012-Cİ İLDƏ BAŞA ÇATMASI NƏZƏRDƏ TUTULAN TƏDBİLƏRİN İCRA VƏZİYYƏTİ ..............................................46**

**MFP-DA İCRASI 2013-CÜ İLDƏ BAŞA ÇATMASI NƏZƏRDƏ TUTULAN TƏDBİLƏRİN İCRA VƏZİYYƏTİ ..............................................47**

**NƏTİCƏLƏR............................................................................................................58**

**TÖVSİYYƏLƏR........................................................................................................50**

**ƏLAVƏ 1. İSTİQAMƏTLƏRİN ICRA VƏZIYYƏTI ...................................52**

# Annotasiya

Bu hesabat Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planının (MFP) monitorinqinin nəticələrini əhatə edir. Bu monitorinq MFP icrasına fokuslanıb və dövlət qurumlarına, komitələr, bələdiyyələrə və dövlətə məxsus olan şirkətlərə müəyyən tövsiyələr təqdim edir. Əsas fokus sahəsi MFP nəzərdə tutulan 28 istiqamətdə tədbirlərin icrasında olan irəliləyişdir.

Nəticələr göstərir ki, bəzi qurumlar plana riayət etmək üçün müəyyən səylər göstərmişlər, lakin hələ də MFP icrasının səmərəliliyinin artırmaq üçün imkan qalmaqdadır. Monitorinqin nəticələrinə əsasən MFP-nin 1 il müddətində orta icra göstəricisi 34 faiz təşkil edir.

MFP 125 bənd üzrə nəzərdə tutulan tədbilərin 70-nin icrası üçün iki və daha yuxarı qurum məsuliyyət daşıyır, bu da ümumi olaraq konkret dövlət qurumlarının məsuliyyətinin müəyyənləşdirilməsində çətinliklər yaradır.

MFP-nın təsdiqlənməsindən ötən 1 il müddətində Planda nəzərdə tutulan tədbilərin həyata keçirilməsi üçün ilkin addımlar atılıb. Ümumi qənaət bundan ibarətdir ki, irəlidə daha səmərli və praktik nəticələr əldə edilməsi üçün daha çox səy göstərilməlməlidir. Monitorinq prosesi göstərdi ki, dövlət orqanları MFP ilə üzərlərinə düşən vəzifələrin yerinə yetirilməsi istiqamətində çox ləng addımlar atırlar. MFP-nın təhlili göstətir ki, tədbilərin həyata keçirilməsinin əsas hissəsi zaman etibarı ilə 2013-2014-cü illəri əhatə edir. Şərti olaraq 2013-cü il start ili hesab etmək olar. 2014-cü il isə fəaliyyətlərin əsas hissəsinin tamamlanmalıdır. Monitorinq nəticələrinə əsasən demək olar ki, 2013-cü ildəki ləngimələr sonrakı dövrlərdə öz neqativ nəticələrini verə bilər. Bu isə öz növbəsində bütövlükdə MFP- uğurla icrasına bütövlükdə ciddi əngəllər yarada bilər

Monitorinq zamanı ilk növbədə diqqəti çəkən MFP üzrə 2013-cü ildə başa çatması nəzərdə tutulan fəaliyyətin həyata keçirilməsində dinamikanın zəif olmasıdır. Monitorinq zamanı verilən sorğuların bir çoxunda qeyd edilib ki, 2013-cü il başa çatmadığından MFP ilə nəzərdə tutulan tədbilərin həyata keçirilməsi istiqamətində işlər yekunlaşmayıb, davam edir. Lakin nəzərə almaq lazımdır ki, ilin sonuna çox az müddət qalır və cavabdeh dövlət orqanları bu müddətdən maksimum yararlanmalıdırlar.

MFP üzrə fəaliyyətlərin icrası ilə bağlı dövlət qurumları arasında koordinasiyanın qənaətbəxş səviyyədə olmaması da diqqəti çəkir.

Korrupsiya riski çox böyük olan sahələrdə, dövlət satınalmaları, tenderlərin keçirilməsi, şəhərslama və tikinti fəaliyyəti, hərracların keçirilməsi, daşınmaz əmlakla bağlı əməliyyatlar sahəsində korrupsiyaya qarşı mübarizə tədbirlərinin icrasında çox aşağı dinamika və irəliləyişin olması müşahidə olunur.

Eyni zamanda korrupsiyaya qarşı mübarizə ilə bağlı ali və orta ixtisas məktəblərinin, ixtisasartırma və tədris mərkəzlərinin proqramlarında korrupsiya ilə mübarizə haqqında tədris kurslarının təşkili ilə bağlı demək olar ki, nəzərəçarpacaq fəaliyyətin olmaması da vurğulanmalıdır.

MFP-da nəzərdə tutulan korrupsiyaya qarşı mübarizədə preventiv tədbilər və korrupsiya risklərini azalmasına yönəlik bir sıra tədbilərin icrasının ləngiməsi də nəzərə çarpır.

Diqqət yetirilməli vacib məqamlardan biri də korrupsiya riski yüksək olan sahələrdə elektron xidmətlərin ləng tətbiq edilməsidir.

Korrupsiyaya Qarşı Mübarizə üzrə Komissiya tərəfindən MFP-nın icrasının ciddi monitorinqi və təhlilinə ehtiyac var. Komissiya dinamikanı daim diqqətdə saxlamalıdır.

Müsbət məqamlar kimi, müəllim və həkimlərin mərkəzləşdirilmiş qaydada müvafiq elektron proqram təminatı ilə test və müsahibə yolu ilə işə götürülməsi, vakanat yerlər barədə əvvəlcədən sayt və mətbu orqanlarda məlumat verilməsidir. Həmçinin əvvəlki illərlə müqayisədə vətəndaş cəmiyyəti ilə müntəzəm dialoq və əlaqələrin genişlənməsi qeyd edilməlidir.

Həmçinin vətəndaşların qəbulu ilə bağlı, elektron kargüzarlığın tətbiqi, etik davranış qaydaları ilə bağlı hesablatların verilməsi, Dövlət Qulluğu haqqında Məcəllə layihəsinin hazırlanması, sahibkarlıq subyektlərində yoxlamalrın vahid reystrinin təkmilləşdirilməsi istiqamətində atılan addımlar əhəmiyyətli irəliləyişlər kimi dəyərləndirilə bilər.

Eyni zamanda artıq Azərbaycan Respublikası Prezidenti tərəfindən "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının qanun layihəsi hazırlanaraq parlamentə təqdim edilməsi və qanun layihəsinin 3-cü oxunuşda təsdiqlənməsi sahibkarlıq mühitinin yaxşılaşdırılması istiqamətində əhəmiyyətli addım kimi qiymətləndirilməlidir.

Normativ-hüquqi aktların layihələrinin antikorrupsiya ekspertizasından keçirilməsi qaydalarının hazırlanması" istiqamətində irəliləyişin olması da təqdirəlayiq hal kimi vurğulanmalıdır.

## MONİTORİNQİN MƏQSƏDİ:

Monitorinqin məqsədi bütün maraqlı tərəfləri hər birinin Milli Fəaliyyət Planının(MFP) icrası sahəsində müstəqil mövqe ilə təmin etməkdir. Monitorinq qrupu Milli Fəaliyyət Planının 124 bəndinin icrasında olan inkişaf və zəiflikləri təsvir edib və Azərbaycanda korrupsiya problemi ilə daha səmərəli mübarizə aparmaq üçün tövsiyələri müəyyən edib.

## MFP HAQQINDA

Milli Fəaliyyət Planı (MFP) dövlət qurumları, komitələr, bələdiyyələrə və dövlətə məxsus olan şirkətlər və başqa maraqlı tərəflər tərəfindən icrası nəzərdə tutulan 125 bənddə əks olunan tədbirlərdən ibarətdir. Tədbirlər 28 istiqamət üzrə qruplaşdırılıb. Monitorinq icrası 2012 və 2013-cü illərdə nəzərdə tutlmuş tədbirlərin icra vəziyyəti üzərində fokuslaşıb. Milli Fəaliyyət Planı 2012-ci ildə 2 və 2013-cü ildə 48 tədbirin icrasını nəzərdə tutur.

MFP-nın təsdiqlənməsindən ötən bir il müddətində Planda nəzərdə tutulan tədbilərin həyata keçirilməsi üçün ilkin addımlar atılıb. Ümumi qənaət bundan ibarətdir ki, irəlidə daha səmərli və praktik nəticələr əldə edilməsi üçün daha çox səy göstərilməlməlidir. Monitorinq prosesi göstərdi ki, dövlət orqanları MFP ilə üzərlərinə düşən vəzifələrin yerinə yetirilməsi istiqamətində çox ləng addımlar atırlar. MFP-nın təhlili göstətir ki, tədbilərin həyata keçirilməsinin əsas hissəsi zaman etibarı ilə 2013-2014-cü illəri əhatə edir. Şərti olaraq 2013-cü il start ili hesab etmək olar. Fəaliyyətlərin əsas hissəsi 2014-cü ildə tamamlanmalıdır. Monitorinq nəticələrinə əsasən demək olar ki, 2013-cü ildəki ləngimələr sonrakı dövrlərdə öz neqativ nəticələrini verə bilər. Bu isə öz növbəsində bütövlükdə MFP- uğurla icrasına bütövlükdə ciddi əngəllər yarada bilər.

Monitorinq zamanı ilk növbədə diqqəti çəkən MFP üzrə 2013-cü ildə başa çatması nəzərdə tutulan fəaliyyətin həyata keçirilməsində dinamikanın zəif olmasıdır. Monitorinq zamanı verilən sorğuların bir çoxunda qeyd edilib ki, 2013-cü il başa çatmadığından MFP ilə nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi istiqamətində işlər yekunlaşmayıb, davam edir. Lakin nəzərə almaq lazımdır ki, ilin sonuna çox az bir müddət qalır və cavabdeh dövlət orqanları bu müddətdən maksimum yararlanmalıdırlar.

| **Tədbirlərin sayı** | **2012** | **2013** | **2014** | **2015** |
|---|---|---|---|---|
| **2** | ■ | | | |
| **13** | ■ | ■ | | |
| **1** | ■ | ■ | ■ | |
| **11** | ■ | ■ | ■ | ■ |
| **36** | | ■ | | |
| **38** | | ■ | ■ | |
| **1** | | | ■ | |
| **4** | | ■ | ■ | ■ |
| **19** | ■ | ■ | ■ | ■ |

*Cədvəl 1: MFP-nın icra illəri üzrə qruplaşmış tədbirləri.*

**MONİTORİNQ METODOLOGİYASI:**

Metodologiya Milli Fəaliyyət Planında əks olunan 125 pozitsya üzrə nəzərdə tutulan hər bir tədbirin icra vəziyyətini üç növ mənəbədən alınan informasiya əsasında qiymətləndirilməsi üçün hazırlanmışdır:

**1).** MFP-nin hər bir komponentinin icra vəziyyətinin qiymətləndirilməsi məqsədi ilə açıq mənbələrin (xəbərlər, rəsmi hesabatlar və digər ictimaiyyətə açıq informasiyalar) analizi aparılmışdır. Metodologiyaya əsasən ekspertlər hər hansı irəliləyişin olması barədə sübutlara əsasən müvafiq bal verməlidirlər. "Açıq mənbələrdən əldə edilən məlumatlar"-a görə qiymətləndirmə zamanı - heç bir, irəliləyişin olmaması-0 bal, müəyyən irəliləyişin olması haqqında sübutlar-1, konkret fəaliyyətin həyata keçirildiyi ilə bağlı aydın sübutlar – 2 balla, Yüksək tərəqqinin aydın sübutları ilə yanaşı təşkilatın əlavə səyləri - 3 balla qiymətləndirilir.
**2).** Mümkün hallarda, dövlət orqanlarının fəaliyyətinin qiymətləndirilməsi məqsədi ilə sorğular göndərilmişdir. Alınan məlumatlar əsasında, ümumi yanaşma tərəqqi dərəcəsinin 0-dan 3-kimi ballar ilə qiymətləndirilməsi olub, cavab alınmaması və yaxud neqativ cavab alınmasına görə-0 bal, tədbir mütləq və hərtərəfli şəkildə yerinə yetirildiyi halda 3 bal. Ümumilikdə, monitorinq çərçivəsində 155 sorğu göndərilib. 100 sorğuya cavab alınıb, bu da ümumi sorğuların 64.5% deməkdir.
**3).** "QHT-lərin cavablandırdığı sorğulardan əldə olunan məlumatlar" – a görə də analoji qiymətləndirmə qaydası nəzərdə tutulub. Bir sıra fəaliyyətlərin qiymətləndirilməsində isə konkret nəticənin əldə olunması 3 balla qiymətləndirilir. Məsələn, "hüquqi aktların layihələrinin antikorrupsiya ekspertizasından keçirilməsi qaydalarının hazırlanması" ilə bağlı fəaliyyətin qiymətləndirilməsi zamanı yuxarıda qeyd olunan qiymətləndirməyə əlavə olaraq – "Qaydalar hazırlanması, təsdiqlənməsi və qüvvəyə minməsi"-3 balla qiymətləndirilmişdir. Yəni monitorinq zamanı aydınlaşa bilər ki, qaydalar müzakirə olunub, qayadalar layihəsi hazırlanıb, bu barədə KİV-də məlumat verilib, QHT-lər bu haqda məlumatlıdır. Bu zaman fəaliyyətin icarsı maksimum 6 balla qiymətləndirilə bilər. Əgər qaydalar təsdiqlənib və qüvvəyə minibsə, bu barədə açıq informasiya mənbələrində müvafiq məlumat varsa, sorğularda konkret məlumat varsa, QHT-lər məlumatlıdırsa makimum 9 balla qiymətləndirilə bilər. Eyni zamanda metodologiyada bir sira tədbilərin icra vəziyyətinin miqyasının da qiymətləndirilməsi üçün indikatorlar göstərilib.

## MONİTORİNQ NƏTİCƏLƏRİNİN XÜLASƏSİ

MFP-da qeyd olunan 125 bəndən 124-ü 2013-cü il üzrə qiymətləndirilmışdir. Bir bəndin icrası (2.3) 2014-ci ildə nəzərdə tutluduğundan monitoringdən çıxarılıb. Çəkisinə görə ən ağır 8 komponentdən ibarət 14-cü istiqamətdir -“Dövlət satınalmalarının təkmilləşdirilməsi və şəffaflığın artırılması”. Sonra 7 komponentlə 12-ci istiqamət gəlir. Rəqəmlərə tam şəkildə Əlavə - 1 və Cədvəl-2-də tanış ola bilərsiniz.




*Qrafik 2: MFP-nın hər bir istiqaməti üzrə üzrə tədbirlərin sayı.*

Monitorinqi həyata keçirən qrupun məqsədi bu 28 istiqamətin icrası zamanı nail olunan irəliləyişin qiymətləndirilməsi olub. Qrafik-3 MFP-nın icrasında müşahidə olunan progressi təsvir edir.




*Qrafik 3: İndiki və planlaşdırılmış vəziyyət.*

Qrafik-3 Mavi rənqli əyri  hər 28 istiqamətdə neçə component olduğunu göstərir. Qırmızı xət hər bir komponrntin icrasında olan progressin göstəricisidr. İçərədki qırmızı xəttin çöldəki mavi xətdə yaxın olan hallarda müvafiq istiqamətin yaxşı  göstəricisidir.

Hər bir istiqamətin icrası üzrə irəliləyişi qrafik şəklində göstərmək üçün Qrafik 4-dən istifadə edirik, çöldəki mavı xətt hər bir istiqamət üzrə 100% icra deməkdir, içərdəki qirmizi əyri isə istiqamət üzrə real icra faizidir.




*Qrafik 4. Hər bir istiqamət üzrə icra %.*

Qrafikdən görüldüyü kimi ən yaxşı nəticə 26-cı “Korrupsiyaya qarşı mübarizə sahəsində beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsi” və 5-ci “Azərbaycan Respublikasının Baş Prokuroru yanında Korrupsiyaya qarşı mübarizə İdarəsinin fəaliyyətinin təkmilləşdirilməsi” istiqamətlər üzrədir. Ən aşağı göstəricilər 18-ci “Özəlləşdirmə prosesində şəffaflığın artırılması” və 20-ci “Şəhərsalma və tikinti qanunvericiliyinin və bu sahədə inzibati idarəçiliyin təkmilləşdirilməsi” istiqamətləri üzrə müşahidə olunur”. Əlavə-1-in ikinci cədvəlində bu rəqəmlərə detallı baxmaq olar.

Müşahidə olunan 124 pozitsiyanın təkcə 55-də icrasına görə bir qurum məsuliyyət daşıyır. O biri 69 pozitsiyada iki və daha çox qurum məsuliyyət daşıyır. Ortalama olaraq icraya görə məsuliyyət daşıyan qurumların orta sayı yüksək olub 1.88. İcrası bir qurumun məsuliyyəti altında olan pozisiyaların bir neçə qurumun məsuliyyəti altında olan pozisiyalarla müqayisədə daha çox icra ehtimalı var. Birinci qrup pozitsiyaların orta icra faizi 40.9 sonuncu üçün isə 30.5 fazi təşkil edir.




*Qrafik 5: Məsul tərəflərin sayı üzrə icra progressi..*

## MFP-İNİN İSTTİQAMƏTLƏR ÜZRƏ İCRA VƏZIYYƏTI

Hesabatın bu hissəsi  icrası 2012-2013-cü illərdə nəzərdə tutulmuş pozitsiyaların həyata keçirilməsində irəliləyişi təsvir edilir. Metodoligiyaya uyğun olaraq hər bir pozityaya uyğun olaraq sıfırdan altıya kimi və ya doqquza kimi qiymətləndirmək mümkündür.

## 1. Korrupsiyaya qarşi mübarizə üzrə qanunvericilik bazasının təkmilləşdirilməsi. İstiqamət üzrə qiymətləndirmə 15 baldan 4 bal (27%)

1.1 Hüquqi tənzimləmənin təsirinin qiymətləndirilməsi qaydalarının müəyyən edilməsi. İcra edir ***Nazirlər Kabineti***, ***Ədliyyə Nazirliyi***, ***İqtisadi İnkişaf Nazirliyi***, ***Maliyyə Nazirliyi*** - 2013-cü il.

Ədliyyə Nazirliyindən  sorğuya cavab olaraq bildirilib ki, bu bəndin icrası 2013-cü ildə nəzərdə tutluduğundan hal-hazırda bu bəndin icrası ilə bağlı işlər davam etdirilir. Tapşırığın digər icraçıları ilə müzakirələr aparılır. Maliyyə nazirliyi anolojı cavab verib. QHT-lərdən və açıq mənbələrdən bu fəaliyyətlə bağlı informasiya yoxdur.  Bu bənd üzrə 6 baldan 1 bal.

1.2 Normativ hüquqi aktların layihələrinin antikorrupsiya ekspertizasından keçirilməsi qaydalarının hazırlanması. İcra edir ***Nazirlər Kabineti, Ədliyyə Nazirliyi*** - 2013-cü il.
Normativ hüquqi aktların layihələrinin antikorrupsiya ekspertizasından keçirilməsi qaydalarının layihəsi Ədliyyə Nazirliyi tərəfindən hazırlanmışdır. Hal-hazırda sənəd razılaşdırma mərhələsindədir. QHT-lərdən və açıq mənbələrdən bu fəaliyyətlə bağlı informasiya yoxdur. Metodologiya üzrə 9 baldan 3 bal.

## 2. Ərizə və şikayətlərə baxılması işinin təkmilləşdirilməsi. İstiqamət üzrə qiymətləndirmə 33 baldan 11 bal (33%)

2.1 Azərbaycan Respublikasının Baş Prokurorluğu nəzdində fəaliyyət göstərən "161 - qaynar xətt" əlaqə mərkəzinin texniki və insan resursu imkanlarının genişləndirilməsi, mərkəzə daxil olmuş məlumatlarla əlaqədar operativ tədbirlər görülməsinin təmin edilməsi, daxil olmuş müraciətlərlə bağlı statistik və analitik məlumatların dərc edilməsi. İcra edir  ***Baş Prokurorluq*** – 2012-2015-ci illər

Baş Prokurorluğun nəzdində fəaliyyət göstərən  "161 - qaynar xətt" əlaqə mərkəzinə müasir texniki avadanlıqlar alınıb, digər dövlət qurumlarının "Qaynar xətt"  əlaqə mərkəzləri ilə əlaqələrin qurulması təşkil edilməklə yanaşı mərkəzdə məlumatların qeydə alınması üçün Baş Prokurorluğun Hüquqi təminat və informasiya idarəsi tərəfindən xüsusi proqram təminatı işlənib hazırlanmışdır. 01.01.2013-30.06.2013 tarixlərində "161 - qaynar xətt" əlaqə mərkəzinə 3237 müraciət daxil olub. Bunlardan 2845-i ilkin 392 təkrar olub[1]. Metodologiya üzrə 6 baldan 5 bal.

2.2 Dövlət orqanları tərəfindən "Qaynar xətlər"in təşkili və fəaliyyəti üzrə vahid metodologiya

[1]http://www.aznocorruption.az/az/news/1023-azrbaycanda-bu-ilin-birinci-yarsnda-qeyd-alnan-korrupsiya-cinaytlrinin-statistikas-aqlanb.html

və standartların müəyyən edilməsi. İcra edir ***Nazirlər Kabineti***, ***Ədliyyə Nazirliyi***, ***Korrupsiyaya qarşı mübarizə üzrə Komissiya*** – 2013-cü il.

**Ədliyyə Nazirliyindən so**rğuya cavab olaraq bildirilib ki, bu bəndin icrası 2013-cü il ərzində nəzərdə tutluduğundan hal-hazırda bu bəndin icrası ilə bağlı işlər davam etdirilir. Korrupsiyaya qarşı mübarizə üzrə Komissiya analojı cavab verib. QHT-lərdən və açıq mənbələrdən bu fəaliyyətlə bağlı informasiya yoxdur.  Metodologiya üzrə 6 baldan 0 bal.

2.3 Korrupsiya halları haqqında məlumat verən şəxslərin müdafiəsinə dair qanun layihəsinin hazırlanması. *İcra edir  İcra:* ***Baş Prokurorluq, Ədliyyə Nazirliyi, Korrupsiyaya qarşı mübarizə üzrə Komissiya*** *– 2014-cü il.*

**Baş Prokurorluqdan sorğuya cavab olaraq bildirilib ki,** : "İnformatorların (korrupsiya halları haqqında məlumat verən şəxslərin) müdafiəsi haqqında" qanun layihəsi və bununla əlaqədar qanunvericiliyə dəyişiklik və əlavələr edilməsi barədə qanun layihələrinin hazırlanması istiqamətində işlər davam etdirilir[2]. Korrupsiyaya qarşı mübarizə üzrə Komissiya analojı cavab verib.  QHT-lərə bu fəaliyyətlə bağlı informasiya yoxdur. Metodologiya üzrə 9 baldan 2.

2.4 Korrupsiya ilə bağlı müraciət, ərizə və şikayətlərə baxılması qaydalarının təkmilləşdirilməsinə dair təkliflərin hazırlanması. İcra edir ***Baş Prokurorluq, Ədliyyə Nazirliyi, Korrupsiyaya qarşı mübarizə üzrə Komissiya*** – 2013-cü il.

**Ədliyyə Nazirliyindən s**orğuya cavab olaraq bildirilib ki, bu bəndin icrası 2013-cü ildə nəzərdə tutluduğundan hal hazırda bu bəndin icrası ilə bağlı işlər davam etdirilir. Korrupsiyaya qarşı mübarizə üzrə Komissiya və Baş Prokurorluq analojı cavab verib. QHT-lərdən və açıq mənbələrdən bu fəaliyyətlə bağlı informasiya yoxdur. Metodologiya üzrə 9 baldan 1 bal.

2.5 Dövlət qurumlarının rəhbərləri tərəfindən mütəmadi olaraq vətəndaşların birbaşa, o cümlədən səyyar qəbulunun təşkili. İcra edir:  ***mərkəzi və yerli icra hakimiyyəti orqanları*** – 2012-2015-ci illər.

Azərbaycan Respublikasında 29 mərkəzi icra hakimiyyəti orqanı mövcuddur.  Bu dövlət orqanlarının hər birinin saytında qəbul günləri, saatları və qəbulu həyata keçirəcək vəzifəli şəxslərin adları və qəbula yazılmaq üçün əlaqə nömrələri yerləşdirilib. Eyni zamanda  85 yerli icra hakimiyyəti orqanı mövcuddur. Bunlardan 77 yerli icra hakimiyyəti orqanının saytında qəbul günləri, saatları və qəbulu həyata keçirəcək vəzifəli şəxslərin adları və qəbula yazılmaq üçün əlaqə nömrələri yerləşdirilib.  Eyni zamanda KİV-də 2013-cü ildə aylar üzrə  mərkəzi icra hakimiyyəti orqanları rəhbərləri tərəfindən şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəli əvvəlcədən açıqlanır[3]. mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin səyyar qəbulları ilə bağlı KİV-ə mütəmadi məlumatlar verilir.

**Auditorlar Palatası:** Auditorlar palatasında rəhbərlik və struktur bölmələrin rəhbərləri tərəfindən vətəndaşların birbaşa qəbulu müəyyən olunmuş işçi qrafikinə uyğun həyata keçirilir. Auditorlar Palatası tərəfindən auditin inkişaf problemlərinə həsr olunmuş, regionlarda təşkil

---

[2]http://www.azerbaijan-news.az/index.php?mod=3&id=26693

[3] http://news.milli.az/society/175386.html

edilmiş görüşlər və fərdi söhbətlər keçirilmişdir.[4] **Vergilər Nazirliyi:** 2012-ci ildə Vergilər Nazirliyinin rəhbərliyi tərəfindən 156 vətəndaş qəbul edilmiş və hesabat ilində 5 saylı Ərazi Vergi İdarəsinin əhatə dairəsinə daxil olan Şirvan şəhərində vətəndaşların səyyar qəbulu təşkil edilmişdir.[5] **FHN:** Fövqəladə hallar naziri, Kəmaləddin Heydərov avqustun 23-də Yevlax, Mingəçevir və Naftalan şəhərlərinin, Goranboy, Göyçay, Ucar, Zərdab, Kürdəmir və Ağdaş rayonlarının sakinləri ilə qəbul keçirib.[6].

Mərkəzi və yerli icra hakimiyyəti orqanlarının vəzifəli şəxsləri tərəfindən 2013-ilin yanvar-avqust aylarında hansı sayda vətəndaşların qəbul edildiyi ilə bağlı təfsilatlı məlumatlar əldə etmək mümkün olmayıb.
Metodologiya üzrə 6 baldan 3 bal

### 1.6 Ərizə və şikayətlərin elektron qaydada qəbulu və rəsmi cavablandırılması işinin təkmilləşdirilməsi. İcra edir: mərkəzi və yerli icra hakimiyyəti orqanları – 2013-2014-cü illər.

29 mərkəzi icra hakimiyyəti orqanın hamısı və 85 yerli icra hakimiyyəti orqanından 84-ü tərəfindən bu orqanların saytları vasitəsilə elektron müraciətlər qəbul olunur. Ərizələrin və şikayətlərin elektron qaydada qəbulu hazırda, «Vətəndaşların müraciətlərinə baxılması qaydası haqqında» Azərbaycan Respublikası Qanununa və *Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 29 dekabr tarixli 52 nömrəli Fərmanı ilə təsdiq edilən* "Dövlət hakimiyyəti orqanlarında, idarə, təşkilat və müəssisələrdə vətəndaşların təklif, ərizə və şikayətləri üzrə kargüzarlığın aparılması Qaydaları"na uyuğun aparılır. Lakin bu qaydalarda vətəndaşların təklif, ərizə və şikayətlərinin elektron formada qəbulu ilə bağlı müddəalar yoxudr. Vətəndaşalrın müraciətləri elektron qaydada qəbul edilir, və rəsmiləşdirilir. Yuxarıda qeyd olunan Qaydalara uyğun olaraq cavablandırılır. Vətəndaşalrın müraciətləri elektron qaydada qəbulu, rəsmiləşdirilməsi, rəsmi cavablandırılması ilə bağlı vahid qayda və prosedurlar hazırlanmayıb. Mərkəzi və yerli icra hakimiyyəti orqanları ayrılıqda bu istiqamətdə işlər görürlər. Məsələn, Əmlak Məsələləri Dövlət Komitəsində (ƏMDK) vətəndaşların ərizə və şikayətlərinin qəbulu və qeydiyyatı Dünya Bankının Daşınmaz Əmlakın Qeydiyyatı Layihəsi çərçivəsində hazırlanmış Avtomatlaşdırılmış Sənəd Dövriyyəsi İnformasiya Sistemi (ASDİS) vasitəsi ilə aparılır[7].

Auditorlar Palatasında **ə**rizə və şikayətlərin elektron qaydada qəbulu, qeydiyyatı və rəsmi cavablandırılmasına nəzarət müvafiq qaydada təşkil olunmuşdur və bu fəaliyyət təkmilləşdirilir.[8] Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinə 2013 yanvar- iyul aylarında 780 müraciət daxil olub, hər birinin cavablandırılması təmin olunub.[9]

Ərizə və şikayətlərin elektron qaydada qəbulu, qeydiyyatı və rəsmi cavablandırılması ilə bağlı vahid qayda və prosedurların hazırlanması istiqamətində işlərin görülməsi barədə hər hansı məlumat əldə etmək mümkün olmayıb.

---

[4] http://www.audit.gov.az/index.php?type=content&subid=4&cid=4
[5] http://vn.taxes.gov.az/qanun/dovlet_proqrami/korrupsiyaya_qarsi.pdf
[6] http://xalqqazeti.com/az/news/social/37235
[7] http://www.ictnews.az/read.php?lang=1&content=20843
[8] http://www.audit.gov.az/uploads/Emr_39.pdf
[9] http://agahmedia.com/2013/08/20/az%C9%99rbaycanda-elektron-xidm%C9%99tl%C9%99rin%C9%99-%C9%99n-chox-muraci%C9%99t-edil%C9%99n-dovl%C9%99t-qurumlarinin-reytinqi/

Metodologiya üzrə 6 baldan 1 bal.

## 3. Cinayət təqibi sahəsində qanunvericiliyin təkmilləşdirilməsi İstiqamət üzrə qiymətləndirmə 39 baldan 9 bal (23%)

3.1 Hüquqi şəxslər barəsində cinayət-hüquqi tədbirlərin tətbiqi qaydalarına dair qanun layihələrinin hazırlanması. İcra edir: ***Baş Prokurorluq***, ***Ədliyyə Nazirliyi*** - 2013-cü il.

**Ədliyyə Nzirliyindən** sorğuya cavab olaraq bildirib ki, hüquqi şəxslər barəsində cinayət-hüquqi tədbirlərin tətbiqi qaydalarına dair qanun layihələri hazırlayaraq aidiyyəti üzrə təqdim edilmişdir. Ictimaiyyətə açıq informasiya mövcud deyil. Baş Prokurorluq analojı cavab verib**.** Metodologiya üzrə 9 baldan 2 bal.

**3.2** Korrupsiyaya qarşı mübarizə sahəsində hakimlərin toxunulmazlıq hüququnun məhdudlaşdırılması üzrə təkliflərin hazırlanması İcra edir: ***Baş Prokurorluq***, ***Ədliyyə Nazirliyi*** - 2013-2014-cü illər.

**Baş Prokurorluq və** Ədliyyə Nazirliyi tərəfindən Korrupsiyaya qarşı mübarizə sahəsində hakimlərin toxunulmazlıq hüququnun məhdudlaşdırılması üzrə təkliflər və bununla əlaqədar qanunvericiliyə dəyişiklik və əlavələr edilməsi barədə qanun layihələrinin hazırlanması istiqamətində işlər davam etdirilir. Açıq mənbələrdə bu fəaliyyətlə bağlı informasiya yoxdur. QHT-lərdə bununla bağlı müvafiq dövlət orqanlarınında müzakirələrin aparıldığı barədə məlumat var. Metodologiya üzrə 9 baldan 2 bal.

3.3 Korrupsiyaya qarşı mübarizədə əməliyyat-axtarış tədbirlərinin səmərəliliyin artırılmasına dair təkliflərin hazırlanması. İcra edir: ***Baş Prokurorluq*** - 2013-2014-cü illər.

**Baş Prokurorluq k**orrupsiyaya qarşı mübarizədə əməliyyat-axtarış tədbirlərinin səmərəliliyinin artırılması üzrə təkliflər və bununla əlaqədar qanunvericiliyə dəyişiklik və əlavələr edilməsi barədə qanun layihələrinin hazırlanması istiqamətində işləri davam etdirir[10]. Sorğuya analoji cavab verilib. QHT-lərin bu istiqamətdə müvafiq müzakirələrin aparıldığı barədə məlumatlıdırlar. Metodologiya üzrə 9 baldan 3 bal.

3.4 Korrupsiyaya qarşı mübarizədə şahidlərin və cinayət təqibini həyata keçirən orqanlarla əməkdaşlıq edən şəxslərin müdafiəsinin təkmilləşdirilməsi üzrə əlavə tədbirlərin müəyyən edilməsi. İcra edir: ***Baş Prokurorluq***, ***Daxili İşlər Nazirliyi***, ***Milli Təhlükəsizlik Nazirliyi*** - 2013-2014-cü illər.

Şahidlərin və cinayət təqibini həyata keçirən orqanlarla əməkdaşlıq edən şəxslərin müdafiəsinin təkmilləşdirilməsi üzrə təkliflər və bununla əlaqədar qanunvericiliyə dəyişiklik və əlavələr edilməsi barədə qanun layihələrinin hazırlanması istiqamətində işlər davam etdirilir[11]. Baş Prokurorluq, Daxili İşlər Nazirliyi sorğuya analoji cavab veriblər. QHT-lərdə bu fəaliyyətlə bağlı informasiya yoxdur. Metodologiya üzrə 6 baldan 1 bal.

3.5 Korrupsiya cinayətləri üzrə istintaq sövdələşməsinin cinayət-prosessual qanunvericiliyə daxil edilməsi üzrə təkliflərin hazırlanması İcra edir: ***Baş Prokurorluq*** - 2013-2014-cü illər

[10] http://www.azerbaijan-news.az/index.php?mod=3&id=26693
[11] http://www.azerbaijan-news.az/index.php?mod=3&id=26693

Korrupsiya cinayətləri üzrə istintaq sövdələşməsinin cinayət-prosessual qanunvericiliyə daxil edilməsi üzrə təkliflər və bununla əlaqədar qanunvericiliyə dəyişiklik və əlavələr edilməsi istiqamətində işlər davam etdirilir[12].
Baş Prokurorluq, sorğuya analoji cavab verib. QHT-lərdə bu fəaliyyətlə bağlı informasiya yoxdur. Metodologiya üzrə 6 baldan 1 bal.

## 4. Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasının fəaliyyətinin təkmilləşdirilməsi İstiqamət üzrə qiymətləndirmə 24 baldan 8 bal (33%)

4.1 Komissiyanın korrupsiya ilə əlaqədar dövlət orqanlarına göndərdiyi müraciətlər üzrə araşdırma və qiymətləndirmələr keçirməsi. İcra edir: ***Korrupsiyaya qarşı mübarizə üzrə Komissiya*** – mütəmadi

Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyadan bildirilib ki, Komissiyaya daxil olan müraciətlər Korrupsiyaya Qarşı Mübarizə İdarəsinə (KQMİ) göndərilir. Qurumun bu sahədə araşdırma aparılması səlahiyyətləri olmadığından bu müraciətlər KQMİ-ə göndərilir. KQMİ yarımillik və illik hesabatlar açıqlasa da Komissiyadan daxil olan müraciətlərin sayı və bunla bağlı görülən tədbirlər barədə ayrıca informasiya verilmir. Metodologiya üzrə 6 baldan 3 bal.

4.2 Fəaliyyət Planının icra vəziyyətinin yoxlanılması məqsədi ilə Komissiyanın monitorinqlər keçirməsi. İcra edir: ***Korrupsiyaya qarşı mübarizə üzrə Komissiya*** – mütəmadi

Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyadan bildirilib ki, MFP-da monitorinq mexanizmi nəzərdə tutulub. MFP-da nəzərdə tutulduğu kimi FP-da icraçı qurumlar kimi nəzərdə tutulan dövlət orqanaları ilin sonunda müvafiq hesabatlar təqdim edəcəklər. Komissiya bu hesabatları öyrəndikdən sonra vətəndaş cəmiyyəti institutlarını da cəlb etməklə monitorinqlər aparacaq. Həmçinin, vətəndaş cəmiyyəti institutlarının hesabat və tədqiqatlarından da istifadə olunacaq. QHT-lərdə Komissiyanın MFP-nin monitorinqini həyata keçirəcəyi, bununla bağlı metodologiya üzərində iş getdiyi və müzakirələr aparılması abrədə məlumatlar var**.** Metodologiya üzrə 6 baldan 3 bal.

4.3 Korrupsiyanın səviyyəsinin öyrənilməsi məqsədi ilə ixtisaslaşdırılmış tədqiqatların və rəy sorğularının keçirilməsi. İcra edir: ***Korrupsiyaya qarşı mübarizə üzrə Komissiya*** - mütəmadi

**Korrupsiyaya qarşı mübarizə üzrə Komissiya:** Bu sahədə hələki işlər görülməyib. Metodologiya üzrə 6 baldan 0 bal.

4.4 Korrupsiyaya qarşı mübarizə üzrə Komissiya Katibliyi strukturunun təkmilləşdirilməsi, maddi-texniki və kadr təminatının gücləndirilməsi üzrə təkliflər hazırlanması. İcra edir: ***Korrupsiyaya qarşı mübarizə üzrə Komissiya*, *Nazirlər Kabineti, Maliyyə Nazirliyi*** - 2013-cü il.

Maliyyə Nazirliyinin verdiyi məlumata görə katibliyin saxlanılması, onun maddi texniki təminatının gücləndirilməsi ilə bağlı tələb olunan vəsaitlərin 2014-cü ilin dövlət büdcəsində nəzərdə tutulması üçün katiblikdən maliyyə nazirliyinə daxil olan müraciətə müvafiq qaydada baxılır. İctimaiyyətə açıq informasiyalar mövcud deyil. Korrupsiyaya qarşı mübarizə üzrə Komissiya və Nazirlər Kabineti analojı cavab göndərib. QHT-lər tərəfindən, QHT-lərin Antokorrupsiya Şəbəkəsi tərəfindən bu istiqamətdə dəfələrlə təkliflər səsləndirilib. QHT-lərin bu

[12] http://www.azerbaijan-news.az/index.php?mod=3&id=26693

istiqamətdə artıq bir müddətdir ki, müzakirələrin aparıldığı barədə məlumatlıdırlar. Açıq mənbələrdən bu fəaliyyətlə bağlı informasiya yoxdur. Metodolgiya üzrə 6 baldan 2 bal.

## 5. Azərbaycan Respublikasının Baş Prokuroru yanında Korrupsiyaya qarşı mübarizə İdarəsinin fəaliyyətinin təkmilləşdirilməsi İstiqamət üzrə qiymətləndirmə 18 baldan 12 bal (67%)

5.1 İdarənin dövlət orqanlarının informasiya sistemləri, məlumat bazaları və reyestrlərindən qanunvericiliklə müəyyən edilmiş qaydada, real vaxt rejimində istifadəsinin təmin edilməsi üzrə tədbirlər görülməsi. İcra edir: İcra*: **Baş Prokurorluq, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi**, **Nazirlər Kabineti***, aidiyyəti dövlət orqanları – 2013-cü il

Dövlət orqanları tərəfindən aparılan elektron informasiya ehtiyatlarından Azərbaycan Respublikasının Baş Prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə İdarəsinin real vaxt rejimində istifadəsini təmin edilməsi ilə əlaqədəar normativ hüquqi aktların layihələri hazırlanaraq Azərbaycan Respublikası Nazirlər Kabinetinə təqdim edilib. Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi analojı cavab göndərib. QHT-lər bu istiqamətdə iş aparılması barədə məlumatlıdırlar. Metodologiya üzrə 6 baldan 3 bal.

**5.2** İdarənin preventiv tədbirlər sahəsində fəaliyyətinin genişləndirilməsi və müvafiq tədbirlər planının qəbul edilməsi İcra edir: ***Baş Prokurorluq*** – 2012-2013-cü illər.

Milli Fəaliyyət Planının icrası ilə əlaqədar Azərbaycan Respublikası Prokurorluğunun Tədbirlər Planı Baş Prokurorluq üzrə müvafiq əmrlə təsdiq edilmiş və Baş prokurorun yanında 8 yanvar 2013-cü il tarixdə keçirilmiş geniş əməliyyat müşavirəsində həmin sənədin icrası barədə göstərişlər verilməklə qarşıda duran vəzifələr müəyyən edilmişdir[13]. Bu fəaliyyətlə bağlı açıq mənbələrdə məlumatlar var və QHT-lərdə bu haqda məlumatlıdırlar. Bununla belə bu preventiv tədbilərin səmərəliliyi və nəticələri barədə ətraflı məlumat əldə etmək mümkün olmayıb. Baş prokurorluqdan bildirilib ki, məxfi və xidməti təyantlı olduğu üçün Tədbirlər Planı ictimaiyyətə ətrfalı məlumat verilməyib. barədə Metodologiya üzrə 6 baldan 5 bal.

5.3 Korrupsiya ilə əlaqədar cinayətlər barədə vahid informasiya bazasının fəaliyyətinin təkmilləşdirilməsi İcra edir: ***Baş Prokurorluq*** - 2013-2014-cü illər

Maliyyə, mühasibat, bank, kredit, elm, texnika və digər peşə sahələri ilə əlaqədar icraatda olan ilkin araşdırma materialları və cinayət işləri üzrə prokurorlara və müstəntiqlərə ixtisaslı məsləhətlər və tövsiyələr verilməsi və bu sahədə yoxlamalar aparılması və yoxlamaların nəticələri üzrə rəy tərtib edilməsi, habelə Korrupsiya ilə əlaqədar cinayətlər barədə Vahid İnformasiya Bazasının idarə olunması məqsədilə İdarədə şöbə səlahiyyətli Mütəxəssislər qrupu yaradılıb.[14] Açıq mənbələrdə bu fəaliyyətlə bağlı məlumatlar var. Sorğu cavablandırılıb. QHT-lər bu barədə məlumatlı deyillər. Metodologiya üzrə 6 baldan 4 bal.

## 6. Cinayət yolu ilə əldə edilmiş gəlirlərin leqallaşdırılmasının qarşısının alınması və bu sahədə institusional mexanizmlərin möhkəmləndirilməsi İstiqamət üzrə qiymətləndirmə 33 baldan 19 bal (58%)

---

[13] http://www.aznocorruption.az/az/news/842-ba351-prokuroru-yan305nda-korrupsiyaya.html
[14] http://news.lent.az/news/66453

6.1 Azərbaycan Respublikasının "Cinayət fəaliyyətindən əldə edilən gəlirlərin leqallaşdırılmasına, axtarışına, həbsinə və müsadirəsinə, o cümlədən terrorçuluğun maliyyələşdirilməsinə dair" Avropa Şurasının Konvensiyasına qoşulması üçün təkliflərin hazırlanması. İcra edir: ***Nazirlər Kabineti, Maliyyə Monitorinqi Xidməti*** - 2013-cü il.

Azərbaycan Respublikasının «Cinayət fəaliyyətindən əldə edilən gəlirlərin leqallaşdırılmasına, axtarışına, həbsinə və müsadirəsinə, o cümlədən terrorçuluğun maliyyələşdirilməsinə dair» Avropa Şurasının Konvensiyasına qoşulması üçün təkliflərin hazırlanması cari ilin fevral-iyun aylarını əhatə edib. Hazırlanmış normativ hüquqi aktların layihələrinin ölkədaxili razılaşdırılması məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim edilib[15]. Açıq mənbələrdə bununla bağlı məlumatlar var. Maliyyə Monitorinqi Xidməti sorğu cavablandırılıb və açıq mənbələrdəki məlumatları təsdiqləyib. QHT-lər bu barədə məlumatlı deyillər. Metodologiya üzrə 6 baldan 5 bal.

6.2 Mənimsənilmiş əmlakın bərpası (asset recovery) üzrə ölkədaxili mexanizmin formalaşdırılması məqsədi ilə normativ hüquqi aktın layihəsinin hazırlanması. İcra edir: ***Baş Prokurorluq***, ***Ədliyyə Nazirliyi***, ***Maliyyə Monitorinqi Xidməti*** – 2013-2014-cü illər.

Mənimsənilmiş əmlakın bərpası (asset recovery) üzrə normativ hüquqi aktların layihələrinin hazırlanması istiqamətdə işlər davam etdirilir.[16] İlkin olaraq Almaniya, Lixtenşteyn, İsveçrə, İngiltərə və ABŞ ölkələrinin bu sahədə olan qanunvericiliyi öyrənilmişdir. Maliyyə Monitorinqi Xidmətindən bildirilib ki, hal-hazırda qabaqcıl təcrübənin ölkə qanunvericiliyinə implementasiyası öyrənilir. Ədliyyə Nazirliyi və Baş Prokurorluqdan analoji cavab verilib. QHT-lərdə bununla bağlı məlumat yoxdur. Metodologiya üzrə 6 baldan 3 bal.

6.3 Monitorinq iştirakçılarının və monitorinqdə iştirak edən digər şəxslərin cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində öhdəliklərinə aidiyyəti dövlət orqanları tərəfindən nəzarətlə bağlı qaydaların hazırlanması. İcra edir: Maliyyə Monitorinqi Xidməti və monitorinq iştirakçılarına və monitorinqdə iştirak edən digər şəxslərə nəzarət edən dövlət orqanları - 2013-cü il.

Maliyyə Monitorinqi Xidməti tərəfindən qəbul edilmiş müvafiq qaydalar nümunə üçün digər dövlət orqanlarına da göndərilmişdir. 2013-cü ilin fevral ayında isə Maliyyə Monitorinqi Xidmətinin inzibati ofisində nəzarət orqanlarının nümayəndələri ilə birgə dəyirmi masa keçirilmiş, nəzarət qaydaları və ümumilikdə nəzarət mexanizminin səmərəliliyinin artırılmasına dair fikir mübadiləsi aparılmışdır. Açıq mənbələrdən bu fəaliyyətlə bağlı informasiya yoxdur. QHT-lərin bu fəaliyyətlə bağlı məlumatları var. Metodologiya üzrə 6 baldan 2 bal.

6.4 Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində vahid statistik məlumat bazasının yaradılması. İcra edir: ***Maliyyə Monitorinqi Xidməti, Milli Təhlükəsizlik Nazirliyi, Baş Prokurorluq*** – 2013-2014-cü illər.

**Maliyyə Monitorinqi Xidməti tərəfindən v**ahid statistik məlumat bazasının yaradılması ilə bağlı müəyyən olunmuş vəzifənin icrası məqsədilə, müvafiq araşdırmalar aparılmışdır. Bu araşdırmalar çərçivəsində müvafiq statistik məlumat bazası üzrə formaya dair FATF,

[15]http://www.fiu.az/images/documents/az/fealiyyet_planlari/mmx_korrupsiyaya_qarshi_milli_fealiyyet_plani.pdf
[16]Maliyyə Monitorinqi Xidməti

MONEYVAL və ATƏT tərəfindən təklif edilən metodikalar, habelə bununla bağlı bir sıra ölkələrin maliyyə monitorinqi orqanlarının təcrübəsi öyrənilmişdir. Bunların əsasında müvafiq məlumatları özündə əks etdirən yeni statistik cədvəl forması, habelə təlimat xarakterli qaydalar layihəsi hazırlanmışdır.Vahid statistik məlumat bazasının yaradılması ilə bağlı fəaliyyət aidiyyəti dövlət orqanları ilə əməkdaşlıq şəraitində həyata keçirilir. Belə ki, aprel ayında Maliyyə Monitorinqi Xidmətinin inzibati ofisində Baş Prokurorluq, Daxili İşlər Nazirliyi və Milli Təhlükəsizlik Nazirliyinin nümayəndələri ilə birgə müzakirələr keçirilmişdir. Bu müzakirələrdə irəli sürülən təkliflər də müvafiq qaydalar layihəsində nəzərə alınmış və layihə aidiyyəti orqanlara təqdim edilmişdir. Vahid statistik məlumat bazasının yaradılması ilə bağlı həmçinin Dünya Bankı, Beynəlxalq Valyuta Fondu və ATƏT-in ekspertləri ilə də müzakirələr aparılmışdır[17]. Milli Təhlükəsizlik Nazirliyi və Baş Prokurorluq analojı cavab göndərib. Açıq mənbələrdən əldə edilən məlumatlar sorğuya verilən cavbalarla üst-üstə düşür. QHT-lərdə bununla bağlı məlumat yoxdur. Metodologiya üzrə 6 baldan 3 bal.

6.5 Azərbaycan Respublikasının Mülki Məcəlləsinə uyğun olaraq lombardların və daşınmaz əmlak alğı-satqısı üzrə vasitəçilik xidmətləri göstərən fiziki və hüquqi şəxslərin fəaliyyət sahəsini tənzimləyən normativ hüquqi aktların layihələrinin hazırlanması. İcra edir: ***Maliyyə Monitorinqi Xidməti***, ***Ədliyyə Nazirliyi*** – 2013-cü il.

Maliyyə Monitorinqi Xidməti tərəfindən **l**ombardların fəaliyyətinin Mülki Məcəllənin müddəaları çərçivəsində lisenziyalaşdırılması məqsədilə normativ hüquqi aktlara dəyişikliklər layihəsi hazırlanmışdır. Belə ki, «Dövlət rüsumu haqqında» Qanunda, Azərbaycan Respublikası Prezidentinin 2.09.2002-ci il tarixli 782 nömrəli Fərmanı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasında bəzi fəaliyyət növlərinə xüsusi razılıq (lisenziya) verilməsi haqqında Qaydalar»da və «Fəaliyyət növlərinin xüsusiyyətindən asılı olaraq xüsusi razılıq (lisenziya) verilməsi üçün tələb olunan əlavə şərtlər barədə» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 7.11.2002-ci il tarixli 174 nömrəli qərarında dəyişikliklər edilməsi barədə qanun, fərman və qərar layihələri hazırlanmışdır. Hazırda layihələr razılaşdırılma mərhələsindədir. Daşınmaz əmlakın alqı-satqısı üzrə vasitəçilik xidmətləri göstərən fiziki və hüquqi şəxslərin fəaliyyət sahəsinin tənzimlənməsi ilə əlaqədar bir sıra ölkələrin təcrübəsi nəzərə alınmaqla «Rieltor fəaliyyəti haqqında» Qanun layihəsi hazırlanmış və Ədliyyə Nazirliyinə təqdim edilmişdir. Bu Qanunun məqsədi Azərbaycan Respublikasında rieltor fəaliyyətini tənzimlənməsi, həmin fəaliyyətlə bağlı vahid dövlət siyasətinin formalaşdırılması və daşınmaz əmlak bazarında rieltor fəaliyyətinin həyata keçirilməsi ilə bağlı fiziki və hüquqi şəxslərin hüquqlarının müdafiəsinin təmin edilməsidir. Ədliyyə Nazirliyindən anolojı cavab gəlib. QHT-lər bu fəaliyyət barədə məlumatlıdırlar. Açıq mənbələrdə bu barədə məlumatlar əldə edilib. Metodologiya üzrə 9 baldan 6 bal.

## 7. Dövlət qulluğuna dair qanunvericiliyin və institusional mexanizmlərin təkmilləşdirilməsi İstiqamət üzrə qiymətləndirmə 18 baldan 8 bal (44%)

7.1 Dövlət qulluğuna dair qanunvericiliyin məcəlləşdirilməsi üzrə layihənin hazırlanması. İcra edir: ***Nazirlər Kabineti, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya*** – 2013-2014-cü illər.

[17] http://www.fiu.az/images/documents/az/neshrler/icra_hesabati_tedbirler_plani_antikorrupsiya.pdf

Azərbaycan Respublikası Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyası tərəfindən Dövlət Qulluğu Məcəlləsinin ilkin layihəsinin təqdimatı keçirilib. Məcəllənin ilkin layihəsi komissiya və Almaniya Beynəlxalq Əməkdaşlıq Təşkilatının (GİZ) həyata keçirdiyi birgə layihə çərçivəsində hazırlanıb[18]. Metodologiya üzrə 6 baldan 6 bal.

7.2 Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın nəzdində ixtisaslaşmış (dövlət qulluğuna dair qanunvericiliyin tətbiqi, etik davranış, maraqlar toqquşmasının qarşısının alınması, korrupsiyaya qarşı mübarizə və s. üzrə təlim və tədrisi həyata keçirən) təlim mərkəzinin yaradılması. İcra edir: ***Nazirlər Kabineti, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya*** – 2013-2014-cü illər

**Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyadan bildiirlib ki,** nəzdində ixtisaslaşmış (dövlət qulluğuna dair qanunvericiliyin tətbiqi, etik davranış, maraqlar toqquşmasının qarşısının alınması, korrupsiyaya qarşı mübarizə və s. üzrə təlim və tədrisi həyata keçirən) təlim mərkəzinin yaradılması istiqamətində işlər davam etdirilir. Açıq informasiyalar yoxdur. Metodologiya üzrə 6 baldan 1 bal.

7.3 Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın strukturunun təkmilləşdirilməsi və maddi-texniki təminatı üzrə təkliflərin verilməsi. İcra edir: *Nazirlər Kabineti, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya* – 2013-2014-cü illər.

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya: Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın strukturunun təkmilləşdirilməsi və maddi-texniki təminatı üzrə təkliflərin verilməsi üzrə işlər davam etdirilir. Ictimaiyyətə açıq informasiyalar yoxdur. Metodologiya üzrə 6 baldan 1 bal.

## 8. Dövlət qulluqçularının fəaliyyətinin təkmilləşdirilməsi və peşəkarlığının artırılması İstiqamət üzrə qiymətləndirmə 39 baldan 10 bal (26%)

8.1 Dövlət qulluğuna qəbulun müsabiqə və şəffaflıq əsasında həyata keçirilməsi mexanizmlərinin təkmilləşdirilməsi. İcra edir: ***Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya***, mərkəzi və yerli icra hakimiyyəti orqanları - 2012-2014-cü illər.

Dövlət Qulluğu Məsələləri üzrə Komissiya 2012-ci il ərzində Dövlət Qulluqçularının Reyestrini inkişaf etdirib, buradakı məlumatlar yenilənib və artırılıb. Dövlət orqanları ilə birgə aparılan işin nəticəsində reystri idarə edən "İdarəetmə strukturu və kadr potensialı sistemi"nin istismarı zamanı ortaya çıxan nöqsanlar araşdırılıb və sistemləşdirilib. 2012-ci ilin son altı ayında ali təhsilini başa vurmuş, lakin təhsil haqqında sənədin surətini almamış namizədlərin müsabiqədə iştirak etməsinə şərait yaratmaq məqsədi ilə namizədlərin qeydiyyatı prosesində yenilik edilib. Belə ki, 2012-ci ildə ali təhsilini başa vurmuş namizədlər yalnız bitirdikləri təhsil müəssisələri və ixtisasları haqqında məlumatları elektron müraciət forması vasitəsilə Komissiyaya təqdim edir. Dövlət qulluğuna qəbulun müsabiqə və şəffaflıq əsasında həyata keçirilməsi mexanizmlərinin

[18] http://az.trend.az/news/society/2135360.html

təkmilləşdirilməsi istiqamətində təkliflərin 2014-cü ilin sonunda hazır olması gözlənilir[19]. QHT-lərlə bu istiqamətdə müzakirələr aparılıb. Metodologiya üzrə 6 baldan 3 bal.

8.2 Dövlət qulluqçularının əlavə təhsilini tənzimləyən qaydaların təkmilləşdirilməsi üzrə təkliflərin hazırlanması. İcra edir: ***Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya, Təhsil Nazirliyi*** - 2012-2013-cü illər.

Bu bəndin icrası ilə bağlı heç bir məlumat almaq mümkün olmayıb.Ictimaiyyətə açıq informasiyalar yoxdur. Metodologiya üzrə 6 baldan 0 bal.

8.3 Dövlət orqanlarının nəzdində olan tədris müəssisələri və mərkəzləri tərəfindən korrupsiyaya qarşı mübarizə üzrə təlim modulunun hazırlanması və bu məsələlərlə əlaqədar tədris proqramlarının (etik davranış, maraqlar toqquşması, informasiya azadlığı və s.) təşkili. İcra edir: mərkəzi icra hakimiyyəti orqanları, ***Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya, Korrupsiyaya qarşı mübarizə üzrə Komissiya*** - 2013-2014-cü illər.

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyadan sorğuaya cavab olaraq bildirilib ki, dövlət orqanlarının nəzdində olan tədris müəssisələri və mərkəzləri tərəfindən korrupsiyaya qarşı mübarizə üzrə təlim modulunun hazırlanması və bu məsələlərlə əlaqədar tədris proqramları hazırlanır. Ictimaiyyətə açıq informasiyalar tapılmayıb. Metodologiya üzrə 6 baldan 1 bal.

8.4 Dövlət qulluqçularının fəaliyyətini qiymətləndirmə qaydalarının qəbul edilməsi, qiymətləndirmə sisteminin xüsusi proqram təminatının yaradılması. İcra edir: ***Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya*** - 2013-2014-cü illər.

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya tərəfindən dövlət qulluqçularının fəaliyyətinin qiymətləndirilməsi ilə bağlı qaydaları tamamlanıb. "Bütün dövlət orqanlarını, beynəlxalq ekspertləri bura cəlb etmişik, onların bütün təkliflərini və rəylərini qəbul etmişik. Hal-hazırda onların emalı gedir[20] . QHT-lər bu barədə məlumatlıdırlar. Açıq mənbələrdəki məlumatlar sorğulara cavabları təsdiqləyir. Metodologiya üzrə 6 baldan 4 bal.

8.5 Dövlət qulluğunda rotasiya sisteminin tətbiqi ilə bağlı pilot layihələrin hazırlanması və bununla əlaqədar metodiki qaydaların tərtib edilməsi. İcra edir: mərkəzi icra hakimiyyəti orqanları, ***Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya*** - 2013-2014-cü illər.

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyadan sorğuya cavab olaraq bildirilib ki, dövlət qulluğunda rotasiya sisteminin tətbiqi ilə bağlı pilot layihələrin hazırlanması və bununla əlaqədar metodiki qaydaların tərtib edilməsi üzrə işlər davam etdirilir. Ictimaiyyətə açıq informasiyalar tapılmayıb. Metodologiya üzrə 6 baldan 1 bal.

[19] http://az.trend.az/news/society/2113583.html
[20] http://az.azvision.az/Dovlet_qulluqchularinin_fealiyyeti_qiymetlendirilib_-7307-xeber.html#.UibbxjbIb5M

8.6 Dövlət qulluqçularının məvaciblərinin mərhələlərlə artırılması, onların sosial təminatının gücləndirilməsi ilə bağlı təkliflərin hazırlanması. İcra edir: ***Nazirlər Kabineti,Maliyyə Nazirliyi*** – 2013-2015-ci illər.

Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin və Tibb baş idarəsinin hərbi qulluqçularının, xüsusi rütbəsi olan əməkdaşlarının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşları orta hesabla 10 faiz artırılıb.[21] Bu fəaliyyətlə bağlı daha hansı işlərin görülməsi, perspektivə hesablanmış addımalar barədə açıq mənbələrdən informasiya əldə etmək mümkün olmayıb. QHT-lərdə də bununla bağlı məlumat yoxdur. Sorğulara cavab olaraq Maliyyə Nazirliyi bildirib ki, bu məsələ ilə bağlı işlər davam etdirilir**.** Metodologiya üzrə 9 baldan 1 bal.

## 9. Maraqlar toqquşmasının qarşısının alınması və maliyyə xarakterli məlumatlar haqqında bəyannamələrin təqdim edilməsi İstiqamət üzrə qiymətləndirmə 24 baldan 7 bal (29%)

9.1 Dövlət qulluqçularının və dövlət orqanlarının vəzifəli şəxslərinin fəaliyyətində maraqlar toqquşmasının qarşısının alınması ilə bağlı qanunvericiliyin təkmilləşdirilməsi üzrə təkliflərin verilməsi. İcra edir: ***Nazirlər Kabineti***, ***Korrupsiyaya qarşı mübarizə üzrə Komissiya*** – 2013-cü il.

“Maraqlar toqquşması haqqında haqqında” qanun layihəsi hazırlanıb**. E**yni zamanda Dövlət qulluqçularının etik davranış qaydaları haqqında” Azərbaycan Respublikasının Qanunda və "Dövlət qulluğu" haqqında Azərbaycan Respublikasının Qanunda maraqların toqquşmasının qarşısının alınması üçün müddəalar nəzərdə tutulub. QHT-lər qanun layihəsinin hazırlanması barədə məlumatlıdırlar. Açıq mənbələrdə qanun layihəsinin hazırlanmsı ilə bağlı məlumatlar veirlib. Metodologiya üzrə 9 baldan 4 bal.

**9.2** Maraqlar toqquşmasının qarşısının alınması üzrə treninqlərin təşkili. İcra edir:***Korrupsiyaya qarşı mübarizə üzrə Komissiya, mərkəzi*** və yerli icra hakimiyyəti orqanları – 2013-2015-ci illər.

**Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyadan bildirilib ki, m**araqlar toqquşmasının qarşısının alınması üzrə treninqlər təşkil olunur. Digər mərkəzi və yerli icra hakimiyyəti orqanlarından bununla bağlı sorğulara cavablarda məlumatlar verilməyib. QHT-lər və açıq informasiya mənbələrində məlumatlar yoxdur. Metodologiya üzrə 6 baldan 1 bal.

**9.3** Vəzifəli şəxslərin maliyyə xarakterli məlumatları haqqında bəyannamənin elektron formada təqdim edilməsi ilə bağlı təkliflərin hazırlanması. İcra edir: Nazirlər Kabineti, Korrupsiyaya qarşı mübarizə üzrə Komissiya - 2013-cü il.

**Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyadan bildirilib ki, “Konstitusiya” Araşdırmalar Fondu** “Vəzifəli şəxslərin maliyyə xarakterli məlumatları haqqında bəyannamənin” Formasının layihəsinini hazırlayaraq Komissiyaya təqdim edib, təkliflər üzərində işlər davam etdirilir. QHT-lər dəfələrlə bu təklifləri səsləndiriblər və Komissiyanın rəsmiləri ilə müzakirələr aparılıb. Metodologiya üzrə 9 baldan 2 bal.

[21] http://anspress.com/index.php?a=2&lng=az&nid=221625

## 10. Etik davranış qaydalarının təkmilləşdirilməsi

## İstiqamət üzrə qiymətləndirmə 30 baldan 10 bal (33%)

10.1 Dövlət qulluqçuları üçün etik davranış məsələləri üzrə mütəmadi tədris kursları və treninqlərin təşkil edilməsi. İcra edir: mərkəzi və yerli icra hakimiyyəti orqanları, ***Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiy***a - 2012-2015-ci illər.
18-29 iyun tarixlərdə Dövlət İdarəçilik Akademiyası tərəfindən rəhbər vəzifəli dövlət qulluqçuları üçün "Dövlət qulluğunun təşkilati əsasları və dövlətin kadr siyasəti" istiqaməti üzrə təşkil edilmiş qısamüddətli ixtisasartırma kursunda Komissiya əməkdaşları dövlət qulluğuna kadrların seçilməsi prosesi, dövlət qulluqçularının etik davranış qaydaları və onların mahiyyəti və insan resurslarının idarə edilməsi mövzularında təlimlər keçmiş, dövlət qulluğu qanunvericiliyi ilə bağlı təlim iştirakçıları ilə müzakirələr aparmışlar[22]. Metodologiya üzrə 6 baldan 1 bal.

10.2 Etik davranış məsələləri üzrə illik hesabatların hazırlanması (hesabatlarda aparılmış maarifləndirmə işləri, etik davranış qaydalarının pozulması halları və tətbiq edilmiş intizam tənbehi tədbirləri göstərilməklə), Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyaya təqdim edilməsi və ictimaiyyətə açıqlanması. İcra: mərkəzi və yerli icra hakimiyyəti orqanları, ***Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiy***a - 2012-2015-ci illər

2013-cü il 7 fevral tarixində Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya "Komissiyanın illik hesabatı və dövlət qulluqçularının etik davranış məsələləri üzrə illik hesabat" mövzusunda "dəyirmi masa" təşkil etmişdir. "Dəyirmi masa"da Azərbaycanda fəaliyyət göstərən qeyri-hökumət təşkilatlarının nümayəndələri və müstəqil ekspertlər iştirak etmişlər[23]. Eyni zamanda Komissiyanın hesabatı hər il qurumun saytında yerləşdirilir və KİV-ə bu barədə məlumat verilir[24]. Metodologiya üzrə 6 baldan 5 bal.

10.3 Etik davranış qaydalarının pozulması ilə bağlı daxil olmuş şikayətlərin effektiv araşdırılması mexanizmlərinin müəyyən edilməsi. İcra edir: mərkəzi və yerli icra hakimiyyəti orqanları, ***Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya*** – 2013-2014-cü illər.

Bu bənddə nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi barədə məlumat əldə etmək mümkün olmayıb. Metodologiya üzrə 6 baldan 0 bal.

10.4 Dövlət orqanlarının internet saytlarında etik məsələlər üzrə xüsusi bölmənin yaradılması (qeyri-etik davranış barədə elektron şikayət etmə mexanizmi, etik qaydalar, etik hesabatlar və s.). İcra edir:mərkəzi və yerli icra hakimiyyəti orqanları - 2013-cü il

Auditorlar Palatasının Vergilər Nazirliyi, Səhiyyə Nazirliyinin, FHN, Ekologiya, Təbii Sərvətlər Nazirliyi, Dövlət gömrük Komitəsinin, Daxili İşlər Nazirliyinin, rəsmi internet səhifəsində texniki olaraq etik məsələlər üzrə xüsusi bölmə yaradılmışdır. 29 mərkəzi icra hakimiyyəti orqanın hamısının saytında "Etik davranış qaydaları", 85 yerli icra hakimiyyəti orqanından 77-sinin saytında "Dövlət qulluqçusunun etik davranış şikayətlər ümumi qaydada qəbul edilir. Etik

[22] http://sia.az/az/news/culture/323339
[23] http://xalqqazeti.com/az/news/social/30544
[24] http://az.trend.az/news/society/2116060.html

davranış qaydalarının pozulması barədə hesabar Dövlət Qulluğu Məsələləri üzrə Komissiya tərəfindən mərkəzləşdirilmiş şəkildə açıqlanır**.** Metodologiya üzrə 6 baldan 3 bal.

10.5 Etik davranış üzrə tədrisin və treninqlərin təşkili ilə əlaqədar tədris modulunun və minimum şərtlərin müəyyən edilməsi. İcra edir: ***Korrupsiyaya qarşı mübarizə üzrə Komissiya***, ***Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya*** - 2013-cü il.

**Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyadan bildirilib ki, e**tik davranış üzrə tədrisin və treninqlərin təşkili ilə əlaqədar tədris modulunun və minimum şərtlərin müəyyən edilməsi istiqamətində işlər davam etdirilir. Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya analoji cavab göndərib. Metodologiya üzrə 6 baldan 1 bal.

## 11. Bələdiyyələrin fəaliyyətinin təkmilləşdirilməsi İstiqamət üzrə qiymətləndirmə 21 baldan 7 bal (33%)

11.1 Bələdiyyələrin aparatlarında qulluğa qəbulun müsabiqə və şəffaflıq əsasında həyata keçirilməsi ilə bağlı təkliflərin hazırlanması. İcra edir: bələdiyyələr, Ədliyyə Nazirliyi - 2013-cü il.

Ədliyyə Nazirliyindən bildirilib ki, "Bələdiyyə qulluğuna qəbul üçün müsabiqənin keçirilməsi qaydaları haqqında bələdiyyə qulluğu haqqında" AR qanununda dəyişiklik edilməsi barədə layihələr hazırlanaraq baxılması üçün Qanunvericilik Baş idarəsinə verilmişdir. QHT-lərdə bununla bağlı məlumatlar var. Metodologiya üzrı 9 baldan 3 bal.

11.2 Bələdiyyə qulluqçuları üçün korrupsiyaya qarşı mübarizə məsələləri üzrə tədris kurslarının, treninqlərin və seminarların təşkili. İcra edir: bələdiyyələr, Ədliyyə Nazirliyi – mütəmadi.

Ədliyyə Akademiyasının, regional ədliyyə şöbələrinin iştirakı ilə bələdiyyə üzvləri və qulluqçular üçün bölgələrdə kurslar təşkil olunmuşdur. Ədliyyə Akademiyası və Dövlət İdarəçilik Akademiyası ilə birlikdə 15 tədris kursu təşkil olunmuşdur və bu tədris kurslarında 807 nəfər iştirak etmişdir. QHT-lər bu fəaliyyət barədə məlumatlıdırlar. Lakin, təlimə cəlb olunanların sayının artrılması, təlimlərin daha çox bələdiyyə üzvünü əhatə etməsini, vətəndaş cəmiyyəti institutlarının bu prosesə cəlb olunmasını tövsiyyə edirlər. Metodologiya üzrə 6 baldan 2 bal.

11.3 Bələdiyyə qulluqçularının etik davranış qaydalarının hazırlanması. İcra edir: bələdiyyələr, Ədliyyə Nazirliyi - 2013-cü il.

**Ədliyyə Nazirliyindən bildirilib ki,** "Bələdiyyə qulluqçularının etik davranış qaydaları haqqında" qanun hazırlanaraq baxılması üçün Qanunvericilik baş idarəsinə verilmişdir. Metodologiya üzrı 9 baldan 2 bal.

## 12. Sahibkarlıq fəaliyyəti üçün əlverişli mühitin təkmilləşdirilməsi İstiqamət üzrə qiymətləndirmə 42 baldan 20 bal (48%)

12.1 Sahibkarların dövlət orqanları ilə münasibətlərində qarşılaşdıqları problemlərin öyrənilməsi və onların həlli üçün tədbirlərin müəyyən edilməsi. İcra edir: İqtisadi İnkişaf Nazirliyi – mütəmadi.

Azərbaycan Respublikası Prezidentinin 28.09.02 tarixli 790 nömrəli Fərmanının 6-cı bəndinin tələblərinə müvafiq olaraq dövlət orqanları tərəfindən (vergi orqanları istisna olmaqla)

sahibkarlıq subyektlərində həyata keçirilmiş yoxlamalarda İqtisadi İnkişaf Nazirliyi nümayəndələrinin iştirakı təmin edilmiş, mümkün kənarlaşmaların aradan qaldırılması və sahibkarların hüquqları müdafiəsi daim diqqətdə saxlanılmışdır. Həmçinin, qeyd olunan Fərmanın 11-ci bəndinə uyğun olaraq, sahibkarlıq subyektlərində yoxlamalarla bağlı Nəzarət Kitabçalarında olan qeydlərin təhlili aparılmış, sahibkarlarla operativ əlaqə sistemini formalaşdırılmış, onların fəaliyyətinə mane olan və qanunsuz müdaxilə edənlər haqqında məlumatlar sistemləşdirərək, 2011-ci ilin ikinci yarımilinə dair məlumatlar 18.06.12 tarixli İİN-X/O-4843/2012 nömrəli və 2012-ci ilin I yarımilinə dair məlumatlar 13.11.12 tarixli İİN-X/O-8792/2012 nömrəli və 2012-ci ilin II yarımilinə dair məlumatlar 12 iyun 2013-cü il tarixli İİN-X/O-4876/2013 nömrəli məktublarla Azərbaycan Respublikasının Prezidentinə təqdim edilmişdir. Eyni zamanda, 2013-cü ilin birinci yarımilliyində sahibkarlığın inkişafına dövlət dəstəyi sahəsində genişmiqyaslı tədbirlər həyata keçirilmiş, o cümlədən yanvar-iyun aylarında sahibkarlıq subyektlərinə 21395 Nəzarət Kitabçası verilmiş və bu istiqamətdə təbliğat işləri davam etdirilmişdir. Həmçinin, Nazirlikdə sahibkarlıq subyektlərinin fəaliyyətinə maneələr törədilməsi ilə bağlı daxil olan şikayətlərə mütəmadi olaraq baxılmış, zərurət olduqda yerində araşdırma aparılmış, o cümlədən Telefon Məlumat Mərkəzi vasitəsi ilə sahibkarların müraciətləri cavablandırılmış və şikayətləri qəbul edilmişdir[25]. Metodologiya üzrə 6 baldan 2 bal.

12.2 Sahibkarlıq sahəsində aparılan yoxlamaların vahid məlumat reyestrinin inkişaf etdirilməsi, o cümlədən reyestrə informasiya ötürülməsinin avtomatlaşdırılması. İcra edir: Ədliyyə Nazirliyi, Maliyyə Nazirliyi – 2013-2014-cü illər

Ədliyyə nazirliyi sistemində fəaliyyət göstərən "Sahibkarlıq sahəsində aparılan yoxlamaların vahid məlumat reyestri"-nin saxlanılması, müşaiyəti və internet şəbəkəsi rabitəsi ilə təminatı məqsədi ilə Ədliyyə Nazirliyinin təklifləri əsasında 2013-cü ilin dövlət büdcəsində nəzərdə tutulmuşdur. Hal-hazırda reystetrin saxlanılması ilə bağlı Ədliyyə Nazirliyindən Maliyyə Nazirliyinə daxil olan müraciətə müvafiq qaydada baxılır. QHT-lərdə bu barədə məlumatlar var. Metodologiya üzrə 6 baldan 2 bal.

12.3 Sahibkarlıq sahəsində qanunsuz yoxlamalar barədə məlumatların qəbul edilməsi üçün elektron portalın və telefon xidmətinin təkmilləşdirilməsi. İcra edir: Ədliyyə Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi – 2013-cü il.

Azərbaycan Respublikası Prezidentinin 15 fevral 2011-ci il tarixli 383 nömrəli Fərmanı ilə "Sahibkarlıq sahəsində aparılan yoxlamaların vahid məlumat reyestrinin forması və aparılması qaydası haqqında Əsasnamə" təsdiq edilmiş və 1 may 2011-ci il tarixindən sahibkarlıq sahəsində aparılan yoxlamaların Vahid Məlumat Reyestri fəaliyyətə başlamışdır. Dövlət nəzarət tədbirinin reyestrdə qeydiyyata alınması konkret məsələ üzrə aparılan yoxlamaların tezliyinə nəzarət etməyə, həmçinin sahibkarlıq subyektlərinin öncədən aparılacaq yoxlama və onun nəticələri haqqında məlumatlanmasına şərait yaratmışdır. Reyestrin aparılmasını, istifadəsini və orada saxlanılan məlumatların mühafizəsini təmin edən qeydiyyat informasiya sisteminin vahid portalı www.yoxlama.gov.az internet ünvanında yerləşdirilərək yoxlayıcı orqanlar və sahibkarlıq fəaliyyəti subyektlərinin istifadəsinə verilmişdir. İqtisadi İnkişaf Nazirliyinin səlahiyyətlərinə aid olan məsələlərlə bağlı Telefon Məlumat Mərkəzinə daxil olan müraciətlərin, sorğuların, sualların

[25] http://economy.gov.az/media/pdf/Kor2012.pdf

vəşikayətlərin cavablandırılması iş günləri ərzində fasiləsiz, saat 9.00-dan 14.00-dək və 14.00-dan 18.00-dək olmaqla növbəli xidmət əsasında canlı ünsiyyət rejimində həyata keçirilir. Gələcəkdə Telefon Məlumat Mərkəzi tərəfindən qeyri-iş günlərində müraciətlərin avtomat rejimdə cavablandırılması nəzərdə tutulur. Metodologiya üzrə 6 baldan 4 bal.

12.4 Qanunsuz yoxlama keçirilməsi, yoxlamaların təyin edilməsi, keçirilməsi və nəticələrinə əsasən tədbirlər görülməsi sahəsində yoxlayıcıların və yoxlayıcı orqanların məsuliyyətinin müəyyənləşdirilməsi üzrə təkliflərin hazırlanması. İcra edir: Ədliyyə Nazirliyi – 2013-cü il.

Ədliyyə Nazirliyindən bildirilib ki, qanunsuz yoxlama keçirilməsi, yoxlamaların təyin edilməsi, keçirilməsi və nəticələrinə əsasən tədbirlər görülməsi sahəsində yoxlayıcıların və yoxlayıcı orqanların məsuliyyətinin müəyyənləşdirilməsi üzrə təkliflərin hazırlanması istiqamətində işlər davam etdirilir. Metodologiya üzrə 6 baldan 1 bal.

12.5 Sahibkarlıq sahəsində aparılan yoxlamalarla bağlı risk qiymətləndirilməsi sisteminin yaradılması və yoxlama risklərinin idarə edilməsi əsasında təyin edilməsi. İcra edir: dövlət tənzimləməsini və nəzarətini həyata keçirən dövlət orqanları - mütəmadi.

Vergilər Nazirliyi sistemində səyyar vergi yoxlaması məqsədləri üçün vergi ödəyicilərinin seçilməsi risk faktorunun qiymətləndirilməsi sisteminin tətbiqi ilə bağlı vergi auditi məqsədləri üçün risklərə əsaslanan avtomatlaşdırılmış seçmə metodu fəaliyyət göstərir. Bu metod 6 seçim modeli və bir köməkçi modeldən ibarət olmaqla sistem vasitəsilə yoxlamaların təyin edilməsi və idarə olunmasını həyata keçirməkdədir.Vergi ödəyicilərinin obyekti və kassası aktiv olan, lakin operativ vergi nəzarəti keçirilməmiş, sahəsi 25 kvadrat metrdən yuxarı olan obyektlərin və həmin obyektlərin mənsub olduqları vergi ödəyicilərinin dövriyyəsi 30,0 min manatdan artıq olan vergi ödəyiciləri üzrə iki risk qrupu müəyyən edilmiş və operativ vergi nəzarəti tədbirlərinin həyata keçirilməsi üçün göstərilən obyektlərin avtomatlaşdırılmış qaydada seçilməsi həyata keçirilir.Sahibkarlıq sahəsində aparılan kameral yoxlamalarla bağlı risk qiymətləndirilməsi sisteminin yaradılması və yoxlamaların risklərin idarə olunması əsasında təyin edilməsi ilə Kameral vergi yoxlamalarının sistemləşdirilməsi və müvafiq uyğunsuzluq məktublarının yaradılmasının avtomatlaşdırılması kameral yoxlamaları zamanı yaradılmış 20-dən artıq risk meyarlarından daha səmərəli tətbiqinə şərait yaratmışdır[26].

Azərbaycan Respublikası Prezidentinin 15.02.11 tarixli 383 nömrəli Fərmanın 2.3.1-ci bəndinin icrasını təmin etmək məqsədilə İqtisadi İnkişaf Nazirliyi tərəfindən sahibkarlıq sahəsində aparılan yoxlamaların məqsəd və prinsiplərini, təşkili və həyata keçirilməsi qaydalarını, yoxlamalar zamanı yoxlayıcı orqanların, onların vəzifəli şəxslərinin hüquqlarını, vəzifələrini və məsuliyyətini, sahibkarların maraqlarının müdafiəsi ilə bağlı tələbləri müəyyən edən "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının qanun layihəsi hazırlanaraq aidiyyəti üzrə Prezident Administrasiyasına təqdim edilmiş və Azərbaycan Respublikası Milli Məclisində üçüncü oxunuşdan keçmişdir. Qeyd olunan Qanunda aparılan yoxlamalarla bağlı risk qiymətləndirilməsi sisteminin yaradılması və yoxlamaların risklərin idarə edilməsi əsasında təyin

[26]http://vn.taxes.gov.az/qanun/dovlet_proqrami/korrupsiyaya_qarsi.pdf

edilməsi istiqamətlərində məsələlər nəzərə alınmışdır.[27] Maliyyə Nazirliyi və Gömrük komitəsi anoloji cavab verib. Metodologiya üzrə 6 baldan 3 bal.

12.6 Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında qanun layihəsinin hazırlanmasının sürətləndirilməsi. İcra edir: Azərbaycan Respublikası Prezidentinin Administrasiyası -2012-ci il.

Prezidentinin Administrasiyasından bildirilib ki, Azərbaycan Respublikası Prezidenti tərəfindən "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının qanun layihəsi hazırlanaraq parlamentə təqdim edilib. Qanun layihəsi Milli Məclis tərəfindən qəbul edilib.

Metodologiya üzrə 6 baldan 6 bal.

12.7 Bütün sahələrdə nağd hesablaşmaların həcminin azaldılması, nağdsız hesablaşmaların həcminin artırılması üçün tədbirlər görülməsi. İcra edir: Nazirlər Kabineti, Vergilər Nazirliyi, Mərkəzi Bank – 2013-2014-cü illər.

Mərkəzi Bankdan bildirilib ki, ölkədə elektron bankçılığın inkişaf etdirilməsi üçün aparıcı bankların mütəxəssisləri və beynəlxalq kart təşkilatlarının nümayəndələri ilə mütəmadi müzakirələr aparılır. Araşdırmalar göstərir ki, beynəlxalq təcrübədə ölkə miqyasında nağdsız hesablaşmaların həcminin artırılması, maliyyə vasitəçiliyində innovasiyaların tətbiqinin genişləndirilməsi məqsədilə bankların iştirakı ilə müxtəlif tədbirlərin keçirilməsi və onların fəaliyyəyinin qiymətləndirilməsi nəticəsində fəqrlənmiş bankların mükafatlandırılması mühüm əhəmiyyət kəsb edir. Qeyd olunanları nəzərə alaraq bankların nağdsız hesablaşmaların genişləndirilməsi, müasir bank texnologiyalarından istifadənin artırılması istiqamətində fəaliyyətinin qiymətləndirilməsi və illik əsasda fərqlənmiş bankların mükafatlandırılması planlaşdırılır[28]. Metodologiya üzrə 6 baldan 2 bal.

## 13. Audit xidmətlərinin təkmilləşdirilməsi İstiqamət üzrə qiymətləndirmə 27 baldan 17 bal (63%)

13.1 Müstəqil audit sahəsində beynəlxalq standartların tətbiqi ilə əlaqədar tədbirlərin davam etdirilməsi. İcra edir: Auditorlar Palatası – mütəmadi.

Beynəlxalq Audit Standartlarının (BAS)-ın tətbiqinə 2010-cu ildən başlanılmış və hazırda da Beynəlxalq Mühasiblər Federasiyası (IFAC) və Azərbaycan Respublikası Maliyyə Nazirliyi ilə birgə bu işlər davam etdirilir[29]. Metodologiya üzrə 6 baldan 6 bal.

13.2 Beynəlxalq təcrübə nəzərə alınmaqla Auditor xidmətinin inkişaf konsepsiyasının (2012-2020-ci illər) layihəsinin hazırlanması. İcra edir: Auditorlar Palatası - 2013-cü il.

Auditorlar Palatası Azərbaycanda auditin 2020-ci ilədək inkişaf konsepsiyasının layihəsi üzərində işi başa çatdırıb.[30] Metodologiya üzrə 6 baldan 6 bal.

[27] http://economy.gov.az/media/pdf/Kor2012.pdf
[28] http://www.nba.az/standalone/nagdsz-dnilr-zr-nominasiya
[29] http://www.azerbaijan-news.az/index.php?mod=3&id=16510

13.3 Məcburi auditdən yayınmaya görə inzibati məsuliyyətin tətbiqi ilə bağlı mexanizmlərin müəyyən edilməsi üçün tədbirlər görülməsi. İcra edir: Vergilər Nazirliyi, Auditorlar Palatası – 2013-cü il.

**Auditorlar Palatası:** Məcburi auditdən yayınmaya görə inzibati məsuliyyətin tətbiqi ilə bağlı mexanizmlərin müəyyən edilməsi üçün tədbirlər davam etdirilir[31] Metodologiya üzrə 6 baldan 3 bal.

13.4 Daxili audit haqqında qanunvericiliyin təkmilləşdirilməsi üzrə təkliflərin hazırlanması. İcra edir: Nazirlər Kabineti, Maliyyə Nazirliyi, Hesablama Palatası, Auditorlar Palatası – 2013-cü il

12 oktyabr 2012-ci ildə Auditorlar Palatasında "Açıq Hökumətin təşviqinə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı"nda və "Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı"nda nəzərdə tutulmuş vəzifələrin icrası ilə əlaqədar müvafiq qurumların iştirakı ilə "dəyirmi masa" keçirilib. Şəffaflığın artırılması və maliyyə nəzarətinin təkmilləşdirilməsi istiqamətində həyata keçirilən işlərin nəticələri, bu sahədə mövcud olan problemlər, qanunvericiliyin təkmilləşdirilməsi istiqamətləri, o cümlədən "Daxili audit haqqında" Azərbaycan Respublikasının Qanunu, maliyyə nəzarəti orqanlarının səlahiyyətlərinin dəqiqləşdirilməsi, maraqlar toqquşmasının qarşısının alınması, etik-davranış üzrə hesabatlılığın, elektron nəzarət sisteminin yaradılması və tətbiqi və s. məsələlər müzakirə olunub [32] . Metodologiya üzrə 9 baldan 2 bal.

## 14. Dövlət satınalmalarının təkmilləşdirilməsi və şəffaflığın artırılması İstiqamət üzrə qiymətləndirmə 48 baldan 8 bal (17%)

14.1 Elektron dövlət satınalmalarının tətbiq edilməsi. İcra edir: Satınalmalar üzrə Dövlət Agentliyi, mərkəzi və yerli icra hakimiyyəti orqanları - 2013-cü il.

Satınalmalar üzrə Dövlət Agentliyindən bildirilib ki, " Dövlət satınalmaları haqqında" qanuna dəyişikliklərlə bağlı hazırlanmış qanun layihəsinin əksər müddəaları elektron satınalmaların təşkili ilə bağlıdır. Metodologiya üzrə 6 baldan 1 bal.

14.2 Dövlət satınalma müqavilələrinin icrasına, o cümlədən həmin müqavilələr üzrə ödənişlərə nəzarətin təkmilləşdirilməsi. İcra edir: Satınalmalar üzrə Dövlət Agentliyi, Maliyyə Nazirliyi, Hesablama Palatası – 2013-2014-cü illər.

Məlumat yoxdur. Metodologiya üzrə 6 baldan 0 bal.

14.3 Dövlət satınalma müqavilələrinin icrasına, o cümlədən həmin müqavilələr üzrə ödənişlərə nəzarətin təkmilləşdirilməsi. İcra edir: Satınalmalar üzrə Dövlət Agentliyi, Maliyyə Nazirliyi, Hesablama Palatası – 2013-2014-cü illərBu istiqamətdə hansısa işlərin görülməsi barədə hər hansı məlumat əldə etmək mümkün olmayıb. Metodologiya üzrə 6 baldan 0 bal.

---

[30] http://www.aztv.az/readnews.php?lang=az&id=10998
[31] http://www.audit.gov.az/uploads/2012-2015-ci_iller_Auditorlar_Palatasinin_Aciq_Hokumet_Is_Plani.pdf
[32] http://gun.az/finance/53084

14.4 Dövlət satınalmaları üzrə keçirilən müsabiqələrdə iştirak edən iddiaçıların hüquqlarını qorumaq məqsədi ilə şikayətlərə təxirə salınmadan baxılması üçün müvafiq tədbirlər görülməsi. İcra edir: Satınalmalar üzrə Dövlət Agentliyi, mərkəzi və yerli icra hakimiyyəti orqanları – mütəmadi.

İqtisadi İnkişaf Nazirliyindən bildirilib ki, "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununun 23.2-ci bəndinə əsasən tender komissiyasının tərkibinə daxil edilmiş İqtisadi İnkişaf Nazirliyinin nümayəndələri tərəfindən satınalma prosedurlarının müvafiq qanunvericilik aktlarının tələblərinə uyğun həyata keçirilməsinə nəzarət edilmiş və bu günədək iddiaçılardan hər hansı şikayət daxil olmamışdır.[33] Dövlət Miqrasiya Xidmətindən anolojı cavab alınıb. Metodologiya üzrə 6 baldan 1 bal.

14.5 Dövlət satınalmalarında aşkar edilən korrupsiya halları barədə hüquq mühafizə orqanlarının məlumatlandırılması. İcra edir: Satınalmalar üzrə Dövlət Agentliyi, mərkəzi və yerli icra hakimiyyəti orqanları – mütəmadi.

İqtisadi İnkişaf Nazirliyindən bildirlib ki, "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununun 23.2-ci bəndinə əsasən, İqtisadi İnkişaf Nazirliyinin nümayəndələrinin iştirak etdiyi dövlət satınalmalarında korrupsiya halları aşkar edilməmişdir.[34] Metodologiya üzrə 6 baldan 1 bal.

14.6 Dövlət satınalmalarının həyata keçirilməsi zamanı ehtimal olunan qiymətlərin müəyyən edilməsi metodologiyasının hazırlanması. İcra edir: Satınalmalar üzrə Dövlət Agentliyi, mərkəzi və yerli icra hakimiyyəti orqanları - 2013-2014-cü illər.

Məlumat yoxdur. Metodologiya üzrə 6 baldan 0 bal.

14.7 Satınalan təşkilatlar tərəfindən növbəti il üçün satınalma planlarının hazırlanaraq Satınalmalar üzrə Dövlət Agentliyinin internet səhifəsində yerləşdirilməsi. İcra edir: Satınalmalar üzrə Dövlət Agentliyi, mərkəzi və yerli icra hakimiyyəti orqanları – 2013-cü il.

Satınalan təşkilatlar tərəfindən Satınalmalar üzrə Dövlət Agentliyinə təqdim edilmiş 2013-cü il üçün satınalma planları haqqında məlumat Satınalmalar üzrə Dövlət Agentliyinin rəsmi səifəsində yerləşdirilib http://tender.gov.az/new/index.php?inc=62 Metodologiya üzrə 6 baldan 5 bal.

14.8 Dövlət satınalma prosedurları nəticəsində bağlanan satınalma müqavilələrinin vahid reyestrinin yaradılması və həmin reyestrin Satınalmalar üzrə Dövlət Agentliyinin internet səhifəsində yerləşdirilməsi. İcra edir: Satınalmalar üzrə Dövlət Agentliyi, mərkəzi və yerli icra hakimiyyəti orqanları –2013-cü il.

Məlumat yoxdur. Metodologiya üzrə 6 baldan 0 bal.

[33] http://economy.gov.az/media/pdf/Kor2012.pdf
[34] http://economy.gov.az/media/pdf/Kor2012.pdf

## 15. Daşınmaz əmlakın dövlət reyestrinin aparılması sahəsində şəffaflığın artırılması İstiqamət üzrə qiymətləndirmə 24 baldan 6 bal (25%)

15.1 Daşınmaz əmlaka dair hüquqların qeydiyyatı üçün qaydaların sadələşdirilməsinə dair təkliflərin hazırlanması. İcra edir: ***Nazirlər Kabineti,Əmlak Məsələləri Dövlət Komitəsi*** – 2013-cü il.

**Əmlak Məsələləri Dövlət Komitəsi tərəfindən** daşınmaz əmlaka dair hüquqların qeydiyyatı üçün qaydaların sadələşdirilməsi, bunun üçün tələb olunan müddətlərin azaldılması, daşınmaz əmlakın dövlət reyestrinin aparılması sahəsində yeni elektron xidmətlərin göstərilməsi barədə təkliflərin hazırlanması nəzərdə tutulur. 2013-cü il mayın 1-dən elektron xidmətlərin tətbiqinə başlanılmışdır. Bu xidmətlər sayəsində hər bir vətəndaş daşınmaz əmlakını qeydiyyatdan keçirmək üçün ərazi qeydiyyat idarələrinə internet vasitəsilə onlayn müraciət edə bilər. Hazırda məhdudiyyət haqqında arayışların verilməsi və təkrar bazardan qayıdan əmlakların qeydiyyatı ilə bağlı müraciətlər elektron qaydada qəbul olunur. Gələcəkdə isə ipotekanın qeydiyyatı, ləğvi, hüquqların tanınması kimi proseslərin də elektron formada aparılması nəzərdə tutulmuşdur. May-oktyabr ayları ərzində 700-ə yaxın elektron müraciət daxil olmuş və icra olunmuşdur.[35] Metodologiya üzrə 6 baldan 2 bal.

15.2 Daşınmaz əmlakın dövlət reyestrindən məlumatların və sənədlərin elektron xidmət vasitəsilə əldə olunmasının təmin edilməsi. İcra edir: ***Əmlak Məsələləri Dövlət Komitəsi*** – 2013-cü il.

Əmlak Məsələləri Dövlət Komitəsinin öz səlahiyyətlərinə uyğun olaraq həyata keçirdiyi elektron xidmətlərlə bağlı qeyd edilməlidir ki, "Elektron xidmət növlərinin Siyahısı" ilə Əmlak Məsələləri Dövlət Komitəsi üzrə müəyyən edilmiş elektron xidmətlərdən beynəlxalq layihələr çərçivəsində ayrılmış vəsait hesabına üçünün (daşınmaz əmlakın dövlət reyestrindən məlumatların verilməsi üçün müraciətin və sənədlərin qəbulu; müsadirə edilmiş, sahibsiz qalmış, vərəsəlik hüququ əsasında dövlət mülkiyyətinə keçən əmlakların satışı; daşınmaz əmlaka dair çıxarışların verilməsi üçün müraciətin və sənədlərin qəbulu) tam işləməsi cari ilin may ayından etibarən təmin edilmişdir. Müraciət edən şəxslər öz elektron imza kartlarından istifadə etməklə mövcud elektron xidmətlərdən sərbəst və maneəsiz şəkildə istifadə edə bilərlər[36]. Indiyə kimi bu elektron xidmətdən 5356 nəfər istifadə edib. Lakinçox az sayda vətəndaşın elektron imza kartı əldə etməsi bi xidmətdən istifadəni məhdudlaşdırı. Eyni zamanda Komitədə yaradılan elektron xidmətlər daha çox xidmətlərdən istifadə etmək üçün elektron müraviət etməyə imkan verir. Sənədlərin əldə olunması isə hələ də elektronlaşmayıb. Metodologiya üzrə 6 baldan 2 bal.

15.3 Daşınmaz əmlakın qeydiyyatı orqanları ilə notariuslar arasında məlumat mübadiləsinin təkmilləşdirilməsi. İcra edir: ***Əmlak Məsələləri Dövlət Komitəsi***, ***Ədliyyə Nazirliyi*** – 2013-cü il.

Əmlak Məsələləri Dövlət Komitəsindən bildirilib ki**, d**aşınmaz əmlakın qeydiyyatı orqanları ilə notariuslar arasında məlumat mübadiləsinin təkmilləşdirilməsi istiqamətində işlər davam etdirilir. Metodologiya üzrə 6 baldan 1 bal.

---

[35] http://wap.azertag.com/wapindex/node/1029204?hl=az

[36] http://www.emdk.gov.az/?/az/news/view/304

15.4 Daşınmaz əmlakın dövlət reyestri ilə digər informasiya sistemləri (məlumat bazaları, məlumat-axtarış bazaları, reyestrlər və s.) arasında mübadilə imkanlarının genişləndirilməsi və informasiya mötəbərliyinin təmin edilməsi. İcra edir:***Əmlak Məsələləri Dövlət Komitəsi,*** aidiyyəti dövlət orqanları – 2013-2014-cü illər.

Əmlak Məsələləri Dövlət Komitəsindən bildirilib ki, daşınmaz əmlakın dövlət reyestri ilə digər informasiya sistemləri (məlumat bazaları, məlumat-axtarış bazaları, reyestrlər və s.) arasında mübadilə imkanlarının genişləndirilməsi və informasiya mötəbərliyinin təmin edilməsi istiqamətində işlər davam etdirilir. Metodologiya üzrə 6 baldan 1 bal.

## 16. Lisenziya və icazə vermə, sertifikatlaşdırma işinin təkmilləşdirilməsi İstiqamət üzrə qiymətləndirmə 24 baldan 7 bal (29%)

16.1. Lisenziyaların və icazələrin verilməsi şərtlərinin və müddətlərinin sadələşdirilməsinə dair təkliflərin təqdim edilməsi. İcra edir: Nazirlər Kabineti – 2012-ci il.

**L**isenziyaların və icazələrin verilməsi şərtlərinin və müddətlərinin sadələşdirilməsinə dair təkliflərin hazırlanması istiqamətində hansısa işlərin görülməsi barədə məlumat əldə etmək mümkün olmayıb. . Metodologiya üzrə 6 baldan 0 bal.

16.2 Lisenziya və icazələrin verilməsi ilə əlaqədar elektron xidmətlərin təşkil olunması. İcra edir: aidiyyəti mərkəzi və yerli icra hakimiyyəti orqanları – 2013-2014-cü illər.

İcazələrin Elektron İnformasiya Portalının xidmətindən ümumilikdə 156057 istifadəçi, o cümlədən 2013-cü ilin iyun ayında isə 11847 istifadəçi yararlanmışdır. Ölkə xaricindən 70 dövlətdən, o cümlədən iyun ayında 24 dövlətdən olan istifadəçilər İcazələrin Elektron İnformasiya Portalına müraciət etmişdir[37]. **Təhsil nazirliyi:** Ərizələrin elektron qəbulu üçün proqram təminatı artıq hazırlanmış, və onun yaxın vaxtlarda sınaq rejimində tətbiq edilməsi planlaşdırılır. **Ekologiya və Təbii sərvətlər nazirliyi rəsmi** veb səifəsində elektron xidmətlər təşkil olunub. **Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi:** rəsmi veb səifəsində elektron xidmətlər təşkil olunub. **Dövlət Baytarlıq Xidməti, FHN, Dövlət Mülki Aviasiya Administrasiyası**, **Təhsil Nazirliyi** anolojı cavab göndərib. Metodologiya üzrə 6 baldan 3 bal.

16.3 Avropa İttifaqı və İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) üzvü olan ölkələrdə uyğunluq və keyfiyyət sertifikatı almış məhsulların Azərbaycana idxalı zamanı onların yenidən sertifikatlaşdırılması üzrə tələblərin ləğv edilməsinə və ya yüngülləşdirilməsinə dair təkliflərin verilməsi. İcra edir: Nazirlər Kabineti, Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi – 2013-cü il.

Məlumat yoxdur. Metodologiya üzrə 6 baldan 0 bal.

16.4 “İcazələrin elektron informasiya portalı”nın fəaliyyətinin təmin və təşviq edilməsi, yeni qəbul olunmuş icazə xarakterli sənədlər barədə məlumatların və qanunvericilik aktlarının layihələrinin portala daxil edilməsi. İcra edir: İqtisadi İnkişaf Nazirliyi, dövlət tənzimlənməsini və nəzarətini həyata keçirən dövlət orqanları – 2013-cü il.

[37] http://e-xidmetler.economy.gov.az/index.php/component/chronoforms/?chronoform=fmetal

**İqtisadi İnkişaf Nazirliyi:** 2012-ci il 15 mart tarixindən 2013-cü ilin 24 iyul tarixinə kimi ümumi sayı 120 olmaqla 15 mərkəzi və 1 yerli icra hakimiyyəti orqanı tərəfindən qanunvericilik aktlarının layihələri hazırlanmış və İcazələrin elektron informasiya portalının "sahibkarlıq sahəsinə aid qanunvericilik aktlarının layihələri" xidmət bölməsində yerləşdirilməsi təmin edilmişdir[38]. Metodologiya üzrə 6 baldan 4 bal.

## 17. Vergi nəzarəti və yoxlamalarının səmərəliliyinin artırılması İstiqamət üzrə qiymətləndirmə 30 baldan 10 bal (33%)

17.1 Vergi auditinin seçim prosesinin avtomatlaşdırılması və seçim standartlarının hazırlanması. İcra edir: Vergilər Nazirliyi - 2013-2014-cü illər.

Vergi auditinin seçim prosesinin avtomatlaşdırılması və seçim standartlarının hazırlanması istiqamətində işlər davam etdirilir .[39] Metodologiya üzrə 6 baldan 2 bal.

17.2 Kameral və səyyar vergi yoxlamalarının həyata keçirilməsi üçün standart göstəricilər sisteminin və proqram təminatının işlənib hazırlanması. İcra edir: Vergilər Nazirliyi - 2013-2014-cü illər.

Kameral və səyyar vergi yoxlamalarının həyata keçirilməsi üçün standart göstəricilər sisteminin və proqram təminatının işlənib hazırlanması istiqamətində işlər davam etdirilir [40] . Metodologiya üzrə 6 baldan 2 bal.

17.3 Vergi ödəyicilərinin zəruri məlumatla təmin edilməsinin və vergi ödəyiciləri arasında təbliğat işinin təkmilləşdirilməsi. İcra edir: Vergilər Nazirliyi - 2012-2013-cü illər.

Vergi ödəyicilərinin zəruri məlumatla təmin edilməsinin və vergi ödəyiciləri arasında təbliğat işinin təkmilləşdirilməsi istiqamətində işlər davam etdirilir[41] . Metodologiya üzrə 6 baldan 4 bal.

17.4 Vergi Məcəlləsi üzrə korrupsiyaya şərait yaradan hallar üzrə risk təhlilinin aparılması. İcra edir: Vergilər Nazirliyi - 2013-2014-cü illər.

**Vergilər Nazirliyindən bildirlib ki,** Vergi Məcəlləsi üzrə korrupsiyaya şərait yaradan hallar üzrə risk təhlilinin aparılması istiqamətində işlər davam etdirilir Metodologiya üzrə 6 baldan 1 bal.

17.5 Vergi bəyannamələrinin təqdim edilmə dövriliyinin azaldılması ilə bağlı təkliflərin verilməsi. İcra edir: Vergilər Nazirliyi - 2013-cü il.

**Vergilər Nazirliyindən bildirilib ki,** vergi bəyannamələrinin təqdim edilmə dövriliyinin azaldılması ilə bağlı təkliflərin verilməsi istiqamətində işlər davam etdirilir. Metodologiya üzrə 6 baldan 1 bal.

---

[38] http://economy.gov.az/media/pdf/Kor2012.pdf

[39] http://www.bakupost.az/iqtisadiyyat/20121222020035011.html
[40] http://www.bakupost.az/iqtisadiyyat/20121222020035011.html
[41] http://taxes.gov.az/

## 18. Özəlləşdirmə prosesində şəffaflığın artırılması İstiqamət üzrə qiymətləndirmə 1 baldan 12 bal (8%)

18.1 Hərracların təşkili zamanı elektron idarəetmə sisteminin tətbiq edilməsi. İcra edir: Əmlak Məsələləri Dövlət Komitəsi – 2013-cü il.

Hərracların təşkili zamanı elektron idarəetmə sisteminin tətbiq edilməsi ilə bağlı işlər davam etdirilir [42]**.** Metodologiya üzrə 6 baldan 1 bal.

18.2 Vətəndaşların real vaxt rejimində hərraclarda qeydiyyatdan keçməsinin təmin edilməsi. İcra edir: Əmlak Məsələləri Dövlət Komitəsi – 2013-2014-cü illər.

Məlumat yoxdur.  Metodologiya üzrə 6 baldan 0 bal.

## 19. Gömrük tarif və rüsumlarının toplanması prosesinin təkmilləşdirilməsi İstiqamət üzrə qiymətləndirmə 24 baldan 8 bal (33%)

19.1 Gömrük rüsum və tarifləri barədə məlumatların internet informasiya ehtiyatlarında yerləşdirilməsi. İcra edir: Dövlət Gömrük Komitəsi – mütəmadi.

Gömrük komitəsinin saytında Mallarin nomenklaturasına dair informativ xidmət yaradılıb. Azərbaycan respublikası ərazisinə idxal edilən yüngül minik nəqliyyat vasitələrinə şamil olunan ödənişlərin hesablanması informativ-e xidmət yaradılıb[43].  Metodologiya üzrə 6 baldan 3  bal.

19.2 Gömrük ödənişlərində nağdsız ödəniş sisteminə keçilməsinin təmin edilməsi. İcra edir: Dövlət Gömrük Komitəsi – 2012-2013-cü illər.

Bütün Gömrük idarələri ödəniş post terminalları ilə təmin edilmiş və bu barədə xarici – iqtisadı fəaliyyət iştirakçıları ətraflı məlumatlandırılmışdırlar. Hazırda gömrük ödənişlərinin internet və bank xidmətləri vasitəsi ilə qəbul edilməsi istiqamətində işlər aparılır. Metodologiya üzrə 6 baldan 2 bal.

19.3 Gömrük orqanlarının qərarlarından verilən şikayətlərə baxılması işinin təkmilləşdirilməsi. İcra edir:  Dövlət Gömrük Komitəsi – 2012- 2013-cü illər.

**Dövlət Gömrük Komitəsinindən bildirilib ki,** "VAİS"-kargüzarlıq" avtomatlaşdırılmış idarə sistemi daha da təkmilləşdirilmiş, sistemin imkanları genişləndirilmişdir. Elektron sənəd dövriyyəsinin idarə olunması və təhlükəsizliyini təmin edilməsi üçün mərkəzi Mail Server yaradılmış və Anti –Spam filter sistemi tətbiq edilmişdir. Metodologiya üzrə 6 baldan 1 bal.

19.4 Gömrük sərhədində mal dövriyyəsinin sürətləndirilməsi və sahibkarlıq subyektləri üçün əlverişli şərait yaradılması. İcra edir: Dövlət Gömrük Komitəsi – 2013-cü il.

**Dövlət Gömrük Komitəsindən bildirilib ki, t**ətbiq edilmiş "Bir pəncərə" prinsipini daha da təkmilləşdirilməsi sahəsində müvafiq tədbirlər görülməsi işi davam etdirilmişdir. Gömrük prosedurlarının həyata keçirilməsi zamanı gömrükçü və sahibkar arasında kontaktın minimuma endilməsi, maraqlar toqquşmasının qarşısının alınması üçün səmərəli nəzarət mexanizmlərinin tətbiqi üzərində işlər davam etdirilmişdir. Metodologiya üzrə 6 baldan 2 bal.

[42] http://www.emdk.gov.az/?/az/news/view/339/
[43] http://www.rusum.az/calc3.php

**20. Şəhərsalma və tikinti qanunvericiliyinin və bu sahədə inzibati idarəçiliyin təkmilləşdirilməsi** İstiqamət üzrə qiymətləndirmə 24 baldan 1 bal (33%)

20.1 Tikintiyə icazə, tikintiyə nəzarət və tikintinin istismarına icazə ilə bağlı səmərəli inzibati idarəçiliyin yaradılması, bu sahədə "Bir pəncərə" sisteminin tətbiqi ilə bağlı təkliflərin verilməsi. İcra edir: Nazirlər Kabineti - 2013-cü il.

Tikintiyə icazənin verilməsi ilə bağlı "bir pəncərə" prinsipi tətbiq olunması Şəhərsalma və Tikinti Məcəlləsində nəzərdə tutulub[44]. Bununla belə, "Bir pəncərə" sisteminin tətbiqi ilə bağlı təkliflərin verilməsi ilə bağlı konkret məlumat əldə etmək mümkün olmayıb. Sorğulara cavab verilməyib.

Metodologiya üzrə 6 baldan 1 bal.

20.2 Şəhərsalma və tikinti fəaliyyətində şəffaflığın və ictimaiyyətin iştirakının təmin edilməsi. İcra edir: Arxitektura və Şəhərsalma Komitəsi, Fövqəladə Hallar Nazirliyi, yerli icra hakimiyyəti orqanları, bələdiyyələr - 2013-2014-cü illər.

Məlumat yoxdur. Metodologiya üzrə 6 baldan 0 bal.

20.3 Şəhərsalma və Tikinti Məcəlləsinin tələbləri barədə vətəndaşların maarifləndirilməsi üzrə tədbirlərin həyata keçirilməsi. İcra edir: Arxitektura və Şəhərsalma Komitəsi, Fövqəladə Hallar Nazirliyi, yerli icra hakimiyyəti orqanları, bələdiyyələr - 2013-2014-cü illər.

Məlumat yoxdur. Metodologiya üzrə 6 baldan 0 bal.

20.4 Şəhərsalma və tikinti fəaliyyəti sahəsində elektron hökumət prinsiplərinin tətbiqi ilə bağlı təkliflərin verilməsi. İcra edir: Nazirlər Kabineti - 2013-cü il.

Məlumat yoxdur. Metodologiya üzrə 6 baldan 0 bal.

**21. Təhsil müəssisələrində idarəetmə mexanizminin təkmilləşdirilməsi** İstiqamət üzrə qiymətləndirmə 45 baldan 9 bal (20%)

21.1 Təhsil müəssisələrində imtahan prosesində şəffaflığın artırılması. İcra edir: Təhsil Nazirliyi, TQDK – 2012-2013-cü il

Azərbaycan Tibb Universitetində "Virtual test Mərkəzi" (VTM) yaradılmışdır. Artıq 2011-2012-cı tədris ilinin qış sessiyasından başlayaraq universitetdə imtahanlar Virtual Test üsulu ilə aparılır. VTM-də iki kompyuter zalında 250-yə yaxın kompyuter quraşdırılaraq, lokal şəbəkədə birləşdirilmiş və ümumi server vasitəsilə idarə edilir. Bu mərkəzdə bir gündə 1000 nəfərdən çox tələbə imtahan verə bilir[45] Virtual testlər Azərbacan Pedaqoji Universitetdə (ADPU), İnşaat Universitetində (AzMIU), Tibb Universitetində (ATU) tətbiq olunmaqdadır[46].

Metodologiya üzrə 6 baldan 1 bal.

[44] http://www.anspress.com/index.php?a=2&lng=az&nid=149045
[45] http://webcache.googleusercontent.com/search?q=cache:http://www.amu.edu.az/az/pages/2/547
[46] http://soft.tusi.biz/ts_general/azl/news/tsn-33.htm?mod=print_document&lang=azl

21.2 Ali təhsil müəssisələrində şikayətlərə baxılmasının səmərəliliyinin artırılması. İcra edir: Təhsil Nazirliyi – 2012-2013-cü illər.

Məlumat yoxdur, metodologiya üzrə 6 baldan 0 bal.

21.3 Müəllimlərin etik davranış qaydalarının qəbul edilməsi. İcra edir: Təhsil Nazirliyi – 2012-2013-cü illər.

Amerika Hüquqşünaslar Assosiasiyası Mərkəzi Avropa və Avrasiya Hüquq Təşəbbüsü ("ABA CEELİ") təşkilatının Təhsil Nazirliyinin Korrupsiyaya qarşı mübarizə üzrə işçi qrupu ilə birgə əməkdaşlığı çərçivəsində Təhsil prosesi iştirakçilari üçün etik standartlar modeli hazırlanıb[47]. Metodologiya üzrə 6 baldan 1 bal.

21.4 Vakant müəllim yerləri barədə məlumatların Təhsil Nazirliyinin rəsmi internet səhifəsində və mətbu orqanında dərc edilməsi. İcra edir: Təhsil Nazirliyi - mütəmadi.

Vakant müəllim yerləri barədə məlumatlar Təhsil Nazirliyinin rəsmi internet səhifəsində və mətbu orqanında dərc edililir[48]. Metodologiya üzrə 6 baldan 6 bal.

21.5 Vakant elan edilmiş yerlərə müəllimlərin işə götürülməsi üçün mərkəzləşdirilmiş və şəffaf əsaslarla imtahanların keçirilməsi . İcra edir: Təhsil Nazirliyi – mütəmadi.

2013-2014-cü tədris ilində ümumi təhsil və ilk peşə-ixtisas təhsili müəssisələrinə müəllimlərin işə qəbulunun tənzimlənməsi barədə Azərbaycan Respublikası Təhsil naziri müvafiq əmr imzalamışdır. Bu əmrə müvafiq olaraq 2013-2014-cü tədris ilində ümumi təhsil və ilk peşə-ixtisas təhsili müəssisələrində vakant yerlərə müəllimlərin işə qəbulu mərkəzləşdirilmiş qaydada, elektron proqram təminatı tətbiq olunmaqla müsabiqə yolu ilə həyata keçirilir. İşə qəbulla bağlı keçirilən müsabiqələrdə müşahidəçi qismində vətəndaş cəmiyyəti institutlarının cəlb olunması ilə bağlı məlumat əldə etmək mümkün olmayıb. Metodologiya üzrə 6 baldan 4 bal.

21.6 Müəllimlərin müsabiqədənkənar işə qəbulu ilə əlaqədar məsuliyyətin müəyyən edilməsi üzrə təkliflərin verilməsi. İcra edir: Nazirlər Kabineti, Təhsil Nazirliyi – 2013-cü il.

Məlumat yoxdur, metodologiya üzrə 6 baldan 0 bal.

21.7 Müəllimlərin əməkhaqlarının artırılmasına və sosial təminatının gücləndirilməsinə dair təkliflərin təqdim edilməsi. İcra edir: Nazirlər Kabineti, Təhsil Nazirliyi – 2012-2015-ci illər.

**Təhsil Nazirliyi:** Məlumat yoxdur, metodologiya üzrə 6 baldan 0 bal.

## 22. Səhiyyə sahəsində idarəetmə mexanizminin təkmilləşdirilməsi İstiqamət üzrə qiymətləndirmə 36 baldan 14 bal (39%)

22.1 Səhiyyə sistemində icbari tibbi sığorta sisteminin tətbiqi ilə əlaqədar tədbirlərin sürətləndirilməsi. İcra edir: Nazirlər Kabineti, Səhiyyə Nazirliyi – 2013-2014-cü illər

Səhiyyə sistemində icbari tibbi sığorta sisteminin tətbiqi ilə əlaqədar tədbirlərin sürətləndirilməsi istiqamətində işlər davam etdirilir[49]. Metodologiya üzrə 6 baldan 1 bal

[47] http://www.edu.gov.az/upload/file/e-xidmetler/standartlar-modeli.pdf

[48] http://www.edu.gov.az/view.php?lang=az&menu=391&id=4084

22.2 Həkimlərin etik davranış kodeksinin təşviqatı üzrə treninq və təlimlərin keçirilməsi. İcra edir: Səhiyyə Nazirliyi – 2013-2014-cü illər.

Həkimlərin etik davranış kodeksinin təşviqatı üzrə treninq və təlimlərin keçirilməsi istiqamətində işlər davam etdirilir[50]. Metodologiya üzrə 6 baldan 1 bal

22.3 Vakant həkim yerləri barədə məlumatların Səhiyyə Nazirliyinin rəsmi internet səhifəsində və mətbu orqanında dərc edilməsi. İcra edir: Səhiyyə Nazirliyi – mütəmadi.

Vakant həkim yerləri barədə məlumatlar Səhiyyə Nazirliyinin rəsmi internet səhifəsində və mətbu orqanında dərc edilir [51]

Metodologiya üzrı 6 baldan 6 bal.

22.4 Vakant elan edilmiş yerlərə həkimlərin mərkəzləşdirilmiş qaydada və şəffaf əsaslarla test və müsahibə üsulu ilə işə götürülməsinin təmin edilməsi. İcra edir: Səhiyyə Nazirliyi – mütəmadi.

Səhiyyə Nazirliyi tərəfindən Vakant elan edilmiş yerlərə həkimlərin mərkəzləşdirilmiş qaydada və şəffaf əsaslarla test və müsahibə üsulu ilə işə götürülməsinin təmin edilməsi istiqamətində işlər davam etdirilir[52]. Bu test imtahanı və müshibələrdə vətəndaş cəmiyyəti institutlarının cəlb edilməsi, appeyasiya şikayətləri, bu şikayətlərə baxılması ilə məlumat əldə etmək mümkün olmayıb, Metodologiya üzrə 6 baldan 3 bal.

22.5 Həkimlərin müsabiqədənkənar işə qəbulu ilə əlaqədar məsuliyyətin müəyyən edilməsi üzrə təkliflər verilməsi. İcra edir: Nazirlər Kabineti, Səhiyyə Nazirliyi – 2013-cü il.

Səhiyyə Nazirliyi tərəfindən həkimlərin müsabiqədənkənar işə qəbulu ilə əlaqədar məsuliyyətin müəyyən edilməsi üzrə təkliflər verilməsi istiqamətində işlər davam etdirilir[53]. Metodologiya üzrə 6 baldan 1 bal.

22.6 Həkimlərin əməkhaqlarının artırılmasına və sosial təminatının gücləndirilməsinə dair təkliflərin təqdim edilməsi. İcra edir: Nazirlər Kabineti, Səhiyyə Nazirliyi – 2012-2015-ci illər.

**Səhiyyə Nazirliyindən bilidirilib ki, h**əkimlərin əməkhaqlarının artırılmasına və sosial təminatının gücləndirilməsinə dair təkliflərin təqdim edilməsi istiqamətində işlər davam etdirilir. Metodologiya üzrə 6 baldan 2 bal.

## 23. Dövlət müəssisələrində korporativ idarəetmə prinsiplərinin tətbiqinin təkmilləşdirilməsi İstiqamət üzrə qiymətləndirmə 18 baldan 3 bal (17%)

23.1 Korporativ idarəetmə prinsiplərinin dövlət müəssisələrində tətbiqi sahələrinin araşdırılması və bununla bağlı təlimlərin keçirilməsi. İcra edir: İqtisadi İnkişaf Nazirliyi, Əmlak Məsələləri Dövlət Komitəsi, dövlət müəssisələri – 2013-2014-cü illər.

---

[49] http://sehiyye.gov.az/fealiyyetler.html
[50] http://sehiyye.gov.az/fealiyyetler.html
[51] http://www.sehiyye.gov.az/musabiqe_elanlari.html
[52] http://sehiyye.gov.az/fealiyyetler.html
[53] http://sehiyye.gov.az/fealiyyetler.html

Korporativ idarəetmə prinsiplərinin dövlət müəssisələrində tətbiqi sahələri araşdırılır. Yekun təkliflər hazırladıqdan sonra bu istiqamətdə təlimlər təşkil olunacaqdır [54]**.** Metodologiya üzrə 6 baldan 1 bal.

23.2. Dövlət müəssisələrinə dövlət büdcəsindən ayrılan vəsaitdən, o cümlədən maliyyə yardımlarından səmərəli istifadəsi ilə bağlı təkliflərin hazırlanması. İcra edir: İqtisadi İnkişaf Nazirliyi, Maliyyə Nazirliyi, dövlət müəssisələri – 2013-2014-cü illər.

İqtisadi İnkişaf Nazirliyi tərəfindən Dövlət müəssisələrinə dövlət büdcəsindən ayrılan vəsaitdən, o cümlədən maliyyə yardımlarından səmərəli istifadə ilə bağlı araşdırmalar aparılır**.**[55] Maliyyə Nazirliyi analoјı məlumat verilib. Metodologiya üzrə 6 baldan 1 bal.

23.3 Dövlət müəssisələrinin öz fəaliyyəti barədə illik məruzələr tərtib etməsi və ictimaiyyətə açıqlaması. İcra edir: dövlət müəssisələri – 2013-2015-ci illər.

Dövlət müəssisələrindən AZNEFTKİMYAMAŞ ASC, Azərsu ASC, Azərenerji ASC, öz fəaliyyəti barədə illik hesabatlar hazırlayaraq saytlarında yerləşdirilər. Lakin digər dövlət müəssisələrinin dövlət müəssisələrinin öz fəaliyyətləri barədə illik mərusələr hazırlaması, nəşr edilməsi, paylama statistikası barədə məlumatlar əldə etmək mümkün olmayıb. Metodologiya üzrə 6 baldan 1 bal.

## 24. Kommunal xidmətlərin təkmilləşdirilməsi İstiqamət üzrə qiymətləndirmə 24 baldan 12 bal (50%)

24.1 Elektrik enerjisinin, təbii qazın və suyun istehlakı və haqqının ödənilməsi sahəsində smart kart tipli sayğacların quraşdırılması prosesinin başa çatdırılması. İcra edir: "*Azərenerji" ASC, "Bakıelektrikşəbəkə" ASC, Dövlət Neft Şirkəti, "Azərsu" ASC* – 2013-2014-cü illər

**Dövlət Neft Şirkəti sorğuya cavab olaraq bildirib ki, 2013-cü il a**vqustun 1-nə olan məlumata görə, ölkə üzrə təbii qazla təmin olunan abonentlərin sayı 1 561 750-yə çatıb ki, bunların da 1 542 742-si əhali, 19008-i isə qeyri-əhali abonentidir. Avqustun 1-nə olan məlumata əsasən, əhali abonentlərinin mənzillərində 773 758 "smart-kart" tipli sayğac quraşdırılıb, buda abonentlərin yarısı deməkdir[56]. **"Azərsu" ASC-dən bildiirlib ki,** 01 aprel 2013-cü il tarixə "Azərsu" ASC-nin ölkə üzrə xidmət göstərdiyi 1 milyon 155 min abunəçinin 553 mindən çoxu mexaniki və smart-kart sayğaclarla təmin olumuşdur ki, bununla da sayğaclaşma səviyyəsi 48 faizə çatmışdır[57]. Metodologiya üzrə 6 baldan 3 bal.

24.2 Elektrik enerjisi, təbii qaz və su istehlakının və buna haqq ödənilməsinin qeydiyyatının aparılmasında avtomatlaşdırılmış mərkəzi kompyuter sisteminin tətbiqinin başa çatdırılması. İcra edir: "*Azərenerji" ASC, "Bakıelektrikşəbəkə" ASC, Dövlət Neft Şirkəti, "Azərsu" ASC* – 2013-2014-cü illər.

Dövlət Neft Şirkətindən bildirilib ki, təbii qaz istehlakçılarının uçotunun aparıldığı abonent bazası FoxPro proqram təminatı sistemindən daha mükəmməl olan və real (onlayn) rejimdə

---

[54] http://economy.gov.az/media/pdf/Kor2012.pdf
[55] http://economy.gov.az/media/pdf/Kor2012.pdf
[56] http://az.trend.az/capital/energy/2177378.html
[57] http://azersu.az/News-401

çalışan AGİS (Avtomatlaşdırılmış Qaz İnformasiya sistemi) proqramına inteqrasiya olunmuşdur[58].“Azərsu” ASC analojı cavab verib. [59] Metodologiya üzrə 6 baldan 4 bal.

24.3 Hündürmərtəbəli yeni yaşayış binalarının qazla təminatı ilə əlaqədar məsələlərin həll edilməsi. İcra edir:***Bakı Şəhər İcra Hakimiyyəti***, ***Fövqəladə Hallar Nazirliyi***, ***Dövlət Neft Şirkəti*** – 2013-2014-cü illər.

Dövlət Neft Şirkətindən sorğuya cavab olaraq bildirilib ki, 2012-ci il ərzində də 205 ədəd 2013-ci ildəisə 145 hündürmərtəbəli yeni yaşayış binalarına texniki şərt verilib. 2012-ci ildə qazilə təmin olunması üçün 31 müraciət daxil olub və müraciətlər əsasında qaz ilə təmin olunublar. 2012-ci ildə qazilə təmin olunması üçün 51 müraciət daxil olub və müracitələr əsasında qaz ilə təmin olunublar. [60] Bakı Şəhər İcra Hakimiyyətindən sorguya cavab alınıb amma cavabda müvafiq məlumatlar yoxdur. Metodologiya üzrə 6 baldan 4 bal.

24.4 Mənzil-kommunal təsərrüfatı sahəsində islahatların aparılması, o cümlədən bu sahədə göstərilən xidmətlərin normativ və tariflərinin optimallaşdırılması. İcra edir: ***Nazirlər Kabineti***, ***İqtisadi İnkişaf Nazirliyi***, ***Tarif (qiymət) Şurası*** - 2013-2014-cü illər.

**İqtisadi İnkişaf Nazirliyindən sorğuya cavab olaraq bildiirlib ki, m**ənzil-kommunal təsərrüfatı sahəsində görülən işlərin sistemliliyinin təmin edilməsi və səmərəliliyinin artırılması, Azərbaycan Respublikasının Mənzil Məcəlləsi ilə nəzərdə tutulmuş çoxmənzilli binanın yeni idarəetmə üsullarının tətbiqi ilə bağlı Bakı şəhərinin, onun tərkibinə daxil olan inzibati rayonların icra hakimiyyəti orqanlarının və bələdiyyələrin nümayəndələrinin, eləcə də bu sahəyə maraq göstərən təsərrüfat subyektlərinin iştirakı ilə 30 aprel 2013-cü il tarixində Bakı şəhərində Bakı Biznes Mərkəzində “Azərbaycanda mənzilkommunal sahəsində yeni münasibətlər” mövzusunda tədbir keçirilmişdir. Tədbir kütləvi informasiya vasitələrində, o cümlədən, televiziya kanallarında və informasiya agentliklərinin rəsmi saytlarında geniş işıqlandırılmışdır. Bununla yanaşı, mülkiyyətçilərin çoxmənzilli binaların idarə edilməsinin yeni metodları barədə maarifləndirilməsi məqsədilə Binəqədi Rayonu İcra Hakimiyyətinin təşkilatçılığı ilə həmin rayonun sakinləri ilə görüşlər keçirilmişdir. Həmin görüşlərdə mənzil mülkiyyətçilərinin müştərək cəmiyyətinin yaradılmasının qanunvericilik əsası barədə məlumat verilmiş, hüquqi-təşkilati yardım göstərilmiş və broşurlar paylanmışdır. Azərbaycan Respublikasının Mənzil Məcəlləsinə uyğun olaraq çoxmənzilli binanın idarəedilməsinin yeni metodlarının tətbiqi ilə bağlı “Mənzil Fondunun Yeni İdarəetmə Üsullarına Dair Sənədlər Toplusu”adlı kitabın 2-ci nəşri çap edilmişdir. Həmin kitabçalardan 250-si 6 ay ərzində keçirilmiş tədbirlərdə və görüşlərdə paylanılmışdır. Mənzil-kommunal təsərrüfatının mühüm tərkib hissəsi hesab olunan şəhər (rayon) ərazilərinin sanitar təmizliyinin və şəhər (rayon) küçələrinin, yolların, park və xiyabanların işıqlandırılmasının təmin edilməsində çalışan işçilərin əməyinin normalaşdırılması və əmək hüquqlarının təmin edilməsi, onların sayının hesablanması və iş vaxtından daha səmərəli istifadə edilməsi, şəhərlərin (rayonların) müasir tələblərə cavab verən müvafiq normalara uyğun işıqlandırılmasının və təmizliyinin təmin edilməsi məqsədilə hazırlanmış “Şəhər (rayon) ərazilərinin sanitar təmizliyinin təmin edilməsi üzrə əmək, xidmət, xərc normalarının hesablanması metodikası və onların tətbiqi Qaydaları” və “Şəhər (rayon)

[58] http://www.ikisahil.com/index.php/analitika/item/7219-qaz-t%C9%99s%C9%99rr%C3%BCfat%C4%B1nda-m%C3%BCh%C3%BCm-u%C4%9Furlar-%C9%99ld%C9%99-edilmi%C5%9Fdir.html
[59] http://info.apus.az/?p=1_1
[60] http://anspress.com/index.php?a=2&lng=az&nid=212028

küçələrinin, yolların, park və xiyabanların işıqlandırılması üzrə əmək, xidmət, xərc normalarının hesablanması metodikası və onların tətbiqi Qaydaları", eləcədə həmin Qaydaların təsdiq edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərar layihəsinin son variantı aidiyyəti dövlət orqanlarının rəy və təklifləri əsasında hazırlanmış və hazırda müvafiq orqanlarla razılaşdırma mərhələsindədir. Qeyd olunan layihə aidiyyəti dövlət orqanları tərəfindən vizalandıqdan sonra Azərbaycan Respublikasının Nazirlər Kabinetinə imzalanmaq üçün təqdim ediləcəkdir.[61] Metodologiya üzrə 6 baldan 2 bal.

## 25. Əmək və sosial təminat sahəsində idarəetmə mexanizminin təkmilləşdirilməsi İstiqamət üzrə qiymətləndirmə 42 baldan 16 bal (38%)

25.1 Qeyri-formal məşğulluğun qarşısının alınması və "kölgə iqtisadiyyatına" cəlb olunmuş işçilərin sosial hüquqlarının təmin edilməsi məqsədi ilə onların əmək fəaliyyətinin leqallaşdırılması üzrə tədbirlər görülməsi. İcra edir: Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Dövlət Miqrasiya Xidməti – 2013-2014-cü illər.

**Dövlət Miqrasiya Xidmətindən bilidirilib ki,** 2013-ci ilin 6 ayı ərzində 15579 nəfər əcənəbi və vətəndaşlığı olmayan şəxsin inzibati qanunvericiliyin tələblərini pozması halları müəyyən olunmuşdur. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi analoji cavab göndərib. **Bu istiqamətdə görülən tədbirlər barədə KİV-ə az da olsa məlumatlar verilib.** Metodologiya üzrə 6 baldan 2 bal.

25.2 Sosial yardım proqramları, sosial xidmətlər göstərilməsi, sosial və işsizlik müavinətləri üzrə daxil olan şikayətlərə baxılması işinin təkmilləşdirilməsi. İcra edir: Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi – 2012-2013-cü illər.

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən sorğuya cavab olaraq bildirilib ki, so**sial yardım proqramları, sosial xidmətlər göstərilməsi, sosial və işsizlik müavinətləri üzrə daxil olan şikayətlərə baxılması işinin təkmilləşdirilməsi. istiqamətində işlər davam etdirilir. Vətəndaşlar bu məsələlərlə bağlı Nazirliyə onlayn müraciətlər etmək imkanı var. Nazirlik QHT-lərlə bu məsələ ilə müzakirələr aparır və əməkdşalıq edir. Metodologiya üzrə 6 baldan 2 bal.

25.3 Əmək və sosial təminat sahəsində işçilərin peşəkarlığının artırılmasına və etik davranış qaydalarına dair təlimlərin keçirilməsi. İcra edir: Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi – 2013-2014-cü illər.

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən sorğuya cavab olaraq bildirilib ki, bu** istiqamətdə işlər davam etdirilir[62]. Metodologiya üzrə 6 baldan 2 bal.

25.4 Əlilliyin müəyyən edilməsi meyarlarının beynəlxalq standartlara uyğunlaşdırılması üçün müvafiq tədbirlər görülməsi. İcra edir: Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi – 2012-2013-cü illər.

Hazırda əlilliyin təyin olunması meyarları Nazirlər Kabinetinin 1997-ci ildə verdiyi qərarla müəyyənləşdirilir. Artıq nazirliyin əməkdaşları əlilliyin təyin olunması meyarlarını yenidən işləyərək hökumətə tədim edilib. Bu məsələlərlə bağlı QHT-lərin məlumatı var. QHT-lərlə

[61] http://economy.gov.az/media/pdf/Kor2012.pdf
[62] http://www.hafta-ichi.az/news.php?id=2929

müzakirələr aparılıb. Nazirlik rəsmiləri bununla bağlı mütəmadi olaraq KİV-ə məlumatlar veriblər. Metodologiya üzrə 6 baldan 3 bal.

25.5 Ünvanlı sosial yardım təyin edilməsi üçün zəruri olan sənədlər dairəsinin azaldılması və sənədlərin təqdim edilməsi prosedurunun sadələşdirilməsi üzrə təkliflərin verilməsi. İcra edir: Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi – 2012-2013-cü illər.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən sorğuya cavab olaraq bildirilib ki, Ünvanlı sosial yardım təyin edilməsi üçün zəruri olan sənədlər dairəsinin azaldılması və sənədlərin təqdim edilməsi prosedurunun sadələşdirilməsi üzrə təkliflərin verilməsi istiqamətində işlər davam etdirilir. Bununla bağlı təkliflər hazırlanıb. QHT-lərlə müzakirlər aparılıb. Metodologiya üzrə 6 baldan 3 bal.

25.6 Sosial xidmət müəssisələrinin idarəetmə mexanizminin təkmilləşdirilməsi. İcra edir: Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi - 2012-2013-cü illər.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən sosial xidmət müəssisələrinin idarəetmə mexanizminin təkmilləşdirilməsi istiqamətində işlər davam etdirilir. Nazirlik tərəfindən müəssisələr monitorinqlər aparılır[63]. Metodologiya üzrə 6 baldan 2 bal.

25.7 Sosial xidmət sahəsində dövlət sifarişlərinin ixtisaslaşdırılmış müəssisə və təşkilatlara verilməsi mexanizminin yaradılmasına dair təkliflərin verilməsi. İcra edir: Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi - 2012-2013-cü illər

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən bildirilib ki,** Sosial xidmət sahəsində dövlət sifarişlərinin ixtisaslaşdırılmış müəssisə və təşkilatlara verilməsi mexanizminin yaradılmasına dair təkliflərin verilməsi istiqamətində işlər davam etdirilir. Artıq sağlamlıq imkanları məhdud uşaqlara sosial xidmətlər göstərilməsi üçün sifaişlərin ixtisaslaşmış QHT-lərə verilməsi üçün müsabiqələr elan edilib. Müsabiqə qalibləri olan QHT-lər müvafiq sifarişləri alıblar və 2013-cü ilin iyun ayından başlayaraq layihələri icra edirlər. Metodologiya üzrə 6 baldan 3 bal.

# 26. Korrupsiyaya qarşı mübarizə sahəsində beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsi İstiqamət üzrə qiymətləndirmə 18 baldan 14 bal (78%)

26.1 Korrupsiyaya qarşı mübarizə sahəsində beynəlxalq və regional təşkilatlarla qarşılıqlı fəaliyyət, müxtəlif beynəlxalq proqram və layihələrdə iştirak, habelə bu sahədə ixtisaslaşmış beynəlxalq təşkilatlarla və xarici ölkələrin müvafiq orqanları ilə qarşılıqlı əməkdaşlığın davam etdirilməsi. İcra edir: ***Nazirlər Kabineti, Korrupsiyaya qarşı mübarizə üzrə Komissiya,*** mərkəzi və yerli icra hakimiyyəti orqanları, ***Baş Prokurorluq, Məhkəmə-Hüquq Şurası, İnsan hüquqları üzrə Müvəkkil (Ombudsman)*** - 2012-2015-ci illər.

**İnsan hüquqları üzrə Müvəkkil (Ombudsman** və Aparatın əməkdaşları xarici ölkələrdə keçirilən beynəlxalq konfranslarda çıxış edərək, ölkəmizdə insan hüquqlarının müdafiəsi o cümlədən korrupsiyaya qarşı mübarizə sahəsində həyata keçirilən tədbirlər, qəbul olunan strateji sənədlər və bu sənədlərin icrasi ilə bağlı məlumat verilir, xarici ekspertlər ilə təcrübə mübadiləsi

[63] http://az.trend.az/news/society/2088033.html

aparılır[64]. Korrupsiyaya qarşı mübarizə üzrə Komissiya və Baş Prokurorluq analoji cavab göndərib. Metodologiya üzrə 6 baldan 5 bal.

26.2 Birləşmiş Millətlər Təşkilatı, Avropa Şurasının Korrupsiyaya qarşı Dövlətlər Qrupu (GRECO) və İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) İstanbul Anti-Korrupsiya Fəaliyyət Planı çərçivəsində Azərbaycan Respublikasına verilmiş tövsiyələrin icrası istiqamətində zəruri tədbirlərin davam etdirilməsi. İcra edir: ***Nazirlər Kabineti, Korrupsiyaya qarşı mübarizə üzrə Komissiya***, mərkəzi və yerli icra hakimiyyəti orqanları, ***Baş Prokurorluq, Məhkəmə-Hüquq Şurası, İnsan hüquqları üzrə Müvəkkil (Ombudsman)*** - 2012-2015-ci illər.

**Baş Prokurorluqdan bildirilib ki, k**orrupsiyaya qarşı mübarizə sahəsində beynəlxalq əməkdaşlığın zəruriliyini nəzərə alaraq hesabat dövrü ərzində idarə tərəfindən bu sahədə ixtisaslaşmış beynəlxalq qurumlar və digər ölkələrin müvafiq hüquq mühafizə orqanları ilə əlaqələrin daha da genişlənməsinə xüsusi diqqət yetirilmişdir. Hesabat dövrü ərzində Birləşmiş Millətlər Təşkilatının Korrupsiya əleyhinə Konvensiyasının implementasiyası çərçivəsində beynəlxalq əməkdaşlıq genişləndirilmişdir. İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD) ilə əlaqələr genişləndirilmiş. Həmin görüşlər zamanı ölkəmizin İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) verdiyi tövsiyələrin yerinə yetirilməsi ilə əlaqədar son illərdə korrupsiyaya qarşı mübarizə sahəsində həyata keçirilmiş tədbirlər, ölkəmizdəki korrupsiyaya qarşı mübarizə səviyyəsinin mövcud durumu və qarşıda duran institusional islahatlar və perspektivlər müzakirə edilmiş, nümayəndə heyəti ilə geniş fikir mübadiləsi aparılmışdır. Avropa Şurasının Korrupsiyaya qarşı mübarizə aparan Dövlətlər Qrupu (GRECO) ilə Azərbaycan Respublikası arasında əməkdaşlıq uğurla davam etdirilmişdir.Belə ki, qurumun Azərbaycan Respublikası üzrə 3-cü raund dəyərləndirmə hesabatında verilmiş tövsiyələrin icrası istiqamətində bir sıra mühüm addımlar atılmışdır. Baş prokuror yanında Korrupsiyaya qarşı mübarizə idarəsinin əməkdaşları mütəmadi olaraq həmin tövsiyələrin icrasını diqqətdə saxlamış və zəruri tədbirlərin görülməsini təmin etmişlər. İdarə tərəfindən səlahiyyətli orqanlara məlumat vermiş aktiv rüşvət verən şəxslərin cəzadan avtomatik və tam olaraq azad edilməsi məsələsinə dair müvafiq normativ-hüquqi aktların layihələri hazırlanmışdır[65]. Korrupsiyaya qarşı mübarizə üzrə Komissiya, İqtisadi İnkişaf Nazirliyi, İnsan hüquqları üzrə Müvəkkil (Ombudsman) eyni məzmunda cavab göndərib. Metodologiya üzrə maksimum 6 baldan 5 bal.

26.3 Beynəlxalq Anti-Korrupsiya Akademiyası ilə əməkdaşlığın genişləndirilməsi, birgə təhsil və tədris ***layihələrinin həyata keçirilməsi***. İcra edir:***Vergilər Nazirliyi, Korrupsiyaya qarşı mübarizə üzrə*** Komissiya – 2013-2015-ci illər.

**Vergilər Nazirliyi:** 2013-cü ildə Beynəlxalq Antikorrupsiya Akademiyası (İACA) ilə əməkdaşlığın inkişafı istiqamətində nazirliyin əməkdaşı 10-11 İyul 2013-cü il tarixlərində İACA tərəfindən keçiriləb seminarda iştirak edib. Yaxın gələcəkdə Vergilər Nazirliyinin keçirəcəyi tədbirlərdə İACA-nın nümayəndələrinin iştirakı nəzərdə tutulur.[66] Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyadan analoji cavab alınıb. Metodologiya üzrə 6 baldan 4 bal.

**27. Korrupsiyaya qarşı mübarizə sahəsində vətəndaş cəmiyyəti institutları ilə əməkdaşlığın inkişaf etdirilməsi.** İstiqamət üzrə qiymətləndirmə 12 baldan 7 bal (58%)

---

[64] http://www.ombudsman.gov.az/view.php?lang=az&menu=33&page=1
[65] http://www.genprosecutor.gov.az/?/az/news/view/568/
[66] http://xalqqazeti.com/az/news/economy/30921

27.1 Fəaliyyət planında nəzərdə tutulan tədbirlərin icrasına vətəndaş cəmiyyəti institutlarının cəlb edilməsi. İcra edir: ***Nazirlər Kabineti, Korrupsiyaya qarşı mübarizə üzrə Komissiya***, mərkəzi və yerli icra hakimiyyəti orqanları, ***Baş Prokurorluq***, ***Məhkəmə-Hüquq Şurası***, ***İnsan hüquqları üzrə Müvəkkil (Ombudsman)*** –2012-2015-ci illər.

**Baş Prokurorluqdan sorğuya cavab olaraq bildirilib ki,** korrupsiya ilə mübarizə sahəsində maarifləndirmə və hüquqi yardım proqramlarını həyata keçirən qeyri-hökumət təşkilatları, o cümlədən "Şəffaflıq Azərbaycan" təşkilatı ilə yaxından əməkdaşlıq edilir. Belə ki, Baş Prokurorluq "Şəffaflıq Azərbaycan" təşkilatı tərəfindən MDB ölkələrində ilk dəfə olaraq Amerika Hüquqşünaslar Assosiasiyası Mərkəzi Avropa və Avrasiyada Hüquq Təşəbbüsü (ABA-CEELİ) təşkilatının dəstəyi ilə həyata keçirilən ictimai maraqların müdafiəsi və hüquq məsləhət mərkəzi (ALAC) layihəsi üzrə əməkdaşlıq etmiş, Korrupsiyaya qarşı Mübarizə İdarəsində "Şəffaflıq Azərbaycan" təşkilatından daxil olmuş müraciətlərlə bağlı araşdırmalar aparılmış və bəzi faktlarla əlaqədar cinayət işləri başlanmışdır [67] . İnsan hüquqları üzrə Müvəkkil (Ombudsman) və Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyadan sorğuya cavab olaraq bildirilib ki, qurum Kkorrupsiyaya Qarşı Mübarizə üzrə QHT-lərin Məlumat və Əməkdaşlıq Şəbəkəsi ilə yaxından əməkdaşlıq edir. Birgə tədbirlər, müzakirələr keçirilir. Metodologiya üzrə 6 baldan 4 bal.

27.2 Fəaliyyət planında nəzərdə tutulan tədbirlərin icrası üçün vətəndaş cəmiyyəti institutlarına maliyyə dəstəyi və layihələrin həyata keçirilməsi. İcra edir: *Nazirlər Kabineti, Korrupsiyaya qarşı mübarizə üzrə Komissiya, mərkəzi və yerli icra hakimiyyəti orqanları, Baş Prokurorluq, Məhkəmə-Hüquq Şurası, İnsan hüquqları üzrə Müvəkkil (Ombudsman),Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası* – 2012-2015-ci illər

**İnsan hüquqları üzrə Müvəkkil (Ombudsman):** Azərbaycan Respublikası İnsan hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında Azərbaycan Respublikasının Konstitusiya qanununda və dövlət büdcəsində ayrılan vəsaitlərin xərclər smetasında vətəndaş cəmiyyəti institutlarına maliyyə dəstəyinin ayrılması ilə bağlı bənd nəzərdə tutulmamışdır. Vətəndaş cəmiyyəti institutları ilə birgə layihələrin həyata keçirilmişdir[68]. **Baş Prokurorluqdan bildirilib ki,** Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı mübarizə idarəsi və korrupsiya ilə mübarizə aparan QHT-lərin məlumat və əməkdaşlıq şəbəkəsi arasında imzalanmış Əməkdaşlıq Memorandumu müxtəlif istiqamətlər üzrə uğurla icra olunur. Davamlı əlaqələr çərçivəsində vətəndaşlarda korrupsiyaya qarşı dözülməz münasibətin - vətəndaş mövqeyinin formalaşdırılması üçün antikorrupsiya biliklərinin yayılması, maarifləndirmə məqsədilə birgə layihələrin həyata keçirilməsi, o cümlədən korrupsiyaya qarşı mübarizəyə dair nəşrlərin və sosial reklam məqsədi daşıyan digər əyani vəsaitlərin birgə hazırlanması bu əməkdaşlığın bariz nümunələrindəndir. Korrupsiyaya qarşı mübarizə idarəsinin əməkdaşları korrupsiya ilə mübarizə aparan QHT-lərin məlumat və əməkdaşlıq şəbəkəsinin nümayəndələri ilə müxtəlif telekanallarda "Korrupsiyaya yox" layihəsi çərçivəsində təşkil olunmuş verilişlərdə ayrı-ayrı sahələrdə korrupsiyanın vəziyyəti, ona qarşı birgə mübarizə tədbirləri mövzularında müzakirələrdə iştirak edirlər. Bu dövrdə "AzTV" və "İctimai" televiziyada idarə tərəfindən həyata keçirilən uğurlu əməliyyat tədbirləri və istintaqı aparılan cinayət işləri barədə ictimaiyyətə mütəmadi məlumatlar verilmişdir[69].

---

[67] http://jurnal.meclis.gov.az/news.php?id=401
[68] http://www.ombudsman.gov.az/view.php?lang=az&menu=58
[69] http://www.azerbaijan-news.az/index.php?mod=3&id=26693

Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası müntəzəm olaraq korrupsiyaya qarşı mübarizə mövzularını qrant müsabiqələrinin əsas mövzuları sırasına salır. Bu il Açıq Hökumətin təşviqi ilə bağlı maarifləndirci tədbirlərin həyata keçirilməsi ilə bağlı 1 QHT-yə və 2 QHT koalisiyasına qrantlar ayrılıb.

Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyadan sorğuya cavab olaraq bildirilib ki, QHT-lərin antikorrupsiya Şəbəkəsinə müxtəlif layihələrin həyata keçirilməsi və institusional inkişafın təmin edilməsi üçün qrant verilir. Metodologiya üzrə 6 baldan 3 bal.

**28. Korrupsiyaya qarşı mübarizə ilə bağlı maarifləndirmə** İstiqamət üzrə qiymətləndirmə 36 baldan 13 bal (33%)

28.1 Fəaliyyət planının icrası üzrə tədbirlərin yerinə yetirilməsi vəziyyətinin hər il üzrə dəyərləndirilməsi və ictimaiyyətə açıqlanması. İcra edir:**Korrupsiyaya qarşı mübarizə üzrə Komissiya** - 2012-2015-ci illər.

**Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyadan sorğulara cavab olaraq bildirilib ki,** Fəaliyyət planının icrası üzrə tədbirlərin yerinə yetirilməsi vəziyyətinin hər il üzrə dəyərləndirilməsi və ictimaiyyətə açıqlanması üzrə işlər davam etdirilir, müvafiq hazırlıqlar görülür. 2103-cü ilin sonuna bununla bağlı məlumatlar açıqlanacaq. Metodologiya üzrə 6 baldan 4 bal.

28.2 Dövlət orqanları tərəfindən öz fəaliyyətlərində korrupsiyaya qarşı mübarizə ilə əlaqədar televiziya və radio proqramlarında xüsusi verilişlərin və debatların təşkil edilməsi. İcra edir: mərkəzi və yerli icra hakimiyyəti orqanları - mütəmadi.

**İqtisadi İnkişaf Nazirliyindən bildirilib ki,** Şəffaflığın təmin edilməsi və korrupsiyaya qarşı mübarizə sahəsində əhəmiyyəti nəzərə alınaraq, Azərbaycan Respublikası Sahibkarlığa Kömək Milli Fondunun "Sahibkarlığın inkişafına dövlət dəstəyi" mövzusunda bütün regionları əhatə edən tədbirlərinə, Fondun güzəştli kreditləri hesabına yaradılan müəssisə və obyektlərin fəaliyyətinə dair telekanallarda süjetlər göstərilmiş, Fondun əməkdaşlarının televiziya və radio kanalları üçün müsahibələri təşkil edilmişdir. İqtisadi İnkişaf Nazirliyinin "AzTV" ilə birgə hazırladığı istehlakçıların hüquqlarının qorunması, bu istiqamətdə həyata keçirilən nəzarət və maarifləndirici tədbirləri əhatə edən "Keyfiyyət möhürü" verilişinin növbəti buraxılışları yayımlanmışdır. Bundan başqa, Nazirlik əməkdaşlarının dövlət proqramlarının icrasına, korporativ idarəetməyə, Nazirliyin göstərdiyi elektron xidmətlərə, güzəştli kreditlərin verilməsi qaydalarına, istehlak bazarında həyata keçirilən nəzarət tədbirlərinə dair "AzTV"nin "Günün nəbzi" və "Kənd saatı", "Xəzər" telekanalının "Aktual qonaq" və s. verilişlərinə müsahibələri təşkil edilmişdir[70]. FHN, Auditorlar Palatası analojı cavab göndərib. Metodologiya üzrə maksimum 6 baldan 2 bal.

28.3 Dövlət orqanlarına ictimai etimadın artırılması məqsədi ilə onların fəaliyyəti ilə bağlı təbliğat işinin təşkil edilməsi. İcra edir: mərkəzi və yerli icra hakimiyyəti orqanları - mütəmadi.

**Vergilər nazirliyi:**Vergi orqanlarının fəaliyyətinin işıqlandırılması və geniş ictimaiyyətə çatdırılması məqsədilə KİV-lə yüksək səviyyəli əməkdaşlıq qurulmuşdur. Hesabat ilində KİV-ə 11 press-reliz verilmiş, vergi orqanlarının rəhbər vəzifəli şəxslərinin KİV üçün 2 müsahibəsi təşkil olunmuş, mərkəzi TV kanallarında vergilərlə bağlı 43 süjet efirə verilmiş, internet

---

[70] http://economy.gov.az/media/pdf/Kor2012.pdf

saytlarında 230, mərkəzi mətbuatda 239 material dərc edilmişdir. “Azərbaycan Respublikası hökuməti ilə Argentina Respublikası hökuməti arasında vergi məlumatlarının mübadiləsi haqqında” sazişin imzalanması mərasimində KİV-in iştirakı təmin edilmiş, vergi orqanlarında açıq hökumətin təşviq olunması sahəsində görülən işlərlə bağlı Vergilər Nazirliyinin vəzifəli şəxslərinin brifinqləri təşkil edilmişdir."Nağdsız ödənişlərin həcminin artırılması və POS-terminallardan istifadənin genişləndirilməsi" mövzusunda təşkil olunmuş seminara KİV nümayəndələri cəlb edilməklə yanaşı tədbirin mətbuatda işıqlandırılması təmin edilmişdir.[71]. **FHN**-yi sorğuya cavab olaraq bilirib ki, Dövlət orqanlarına ictimai etimadın artırılması məqsədi ilə onların fəaliyyəti ilə bağlı təbliğat işi təşkil olunmuşdur və bu istiqamətdə həyata jeçirilən fəaliyyət təkmilləşdirilir[72]. **Auditorlar Palatası:** AR Auditorlar Palatasının 2013-2014-cü illər iş planının 6.3-cü “Auditə dair kitabların,dərs vəsaitlərinin, məlumat və təbliğat xarakterli materialların nəşr etdirilməsini nəzərdə tutub. **İqtisadi İnkişaf Nazirliyi:** İqtisadi İnkişaf Nazirliyinə ictimai etimadın artırılması məqsədilə il ərzində müxtəlif mövzularda tədbirlər keçirilmiş, həmin tədbirlərdə KİV-in iştirakı təmin edilmiş, Nazirliyin fəaliyyətinə dair 2009-cu, 2010-cu, 2011-ci və 2012-ci illər üzrə hesabat www.economy.gov.az saytına yerləşdirilmiş, Nazirliyin və strukturuna daxil olan qurumların internet səhifələri mütəmadi olaraq yenilənmiş, Nazirliyin rəhbər vəzifəli şəxslərinin yerli və xarici KİV-ə müsahibələri təşkil olunmuş, məqalələr hazırlanmışdır[73]. Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi, Milli Təhlükəsizlik Nazirliyi tərəfindən analojı cavablar göndərilib. Metodologiya üzrə 6 baldan 4.

28.4. Ali və orta ixtisas məktəblərinin, ixtisasartırma və tədris mərkəzlərinin proqramlarında korrupsiya ilə mübarizə haqqında tədris kurslarının nəzərdə tutulması. İcra edir: ***Təhsil Nazirliyi*** - mütəmadi.

Məlumat yoxdur. Metodologiya üzrə 6 baldan 0.

28.5 Orta məktəb şagirdləri arasında korrupsiyaya qarşı mübarizə mövzusunda inşa və rəsm müsabiqələrinin, digər intellektual müsabiqələrin təşkili. İcra edir: ***Təhsil Nazirliyi*** - mütəmadi.

Məlumat yoxdur. Metodologiya üzrə 6 baldan 0.

28.6 Korrupsiyaya qarşı mübarizə sahəsində bukletlərin, yaddaş kitabçalarının və digər maarifləndirici materialların nəşri və əhali arasında paylanması. İcra edir: ***Korrupsiyaya qarşı mübarizə üzrə Komissiya, Baş Prokurorluq,*** mərkəzi və yerli icra hakimiyyəti orqanları - mütəmadi.

**Baş Prokurorluqdan bildirilib ki,** korrupsiyaya qarşı mübarizə sahəsində vətəndaşların maarifləndirilməsi çərçivəsində qeyri-hökumət təşkilatı olan Korrupsiyaya qarşı mübarizə Fondu ilə birlikdə “Antikorrupsion yaddaş” bukleti hazırlanmışdır. 2012-ci il ərzində idarə tərəfindən ingilis dilində “Azərbaycan Respublikasında hüquq mühafizə tədbirləri ilə korrupsiyaya qarşı mübarizə” adlı buklet və məlumat kitabçası, o cümlədən idarənin 2011-ci ildəki fəaliyyətini əks etdirən bülleten nəşr edilmişdir. Qeyd olunan nəşrlərdə idarənin yeni strukturu, funksiyaları,

[71] http://vn.taxes.gov.az/qanun/dovlet_proqrami/korrupsiyaya_qarsi.pdf
[72] http://www.fhn.gov.az/newspaper/?type=view_news&news_id=3202
[73] http://economy.gov.az/media/pdf/Kor2012.pdf

qanunvericilik bazası barədə məlumatlar əks olunmuşdur[74]. Ötən dövr ərzində İqtisadi İnkişaf Nazirliyində müxtəlif fəaliyyət istiqamətləri üzrə keçirilmiş konfrans, sərgi, biznes forum, treninq və seminarlarda iştirakçılara maarifləndirici nəşrlər paylanmışdır. Eyni zamanda, korrupsiyaya qarşı mübarizə sahəsində bukletlərin, yaddaş kitabçalarının və digər maarifləndirici materialların nəşri və əhali arasında paylanması məqsədi ilə zəruri normativ-hüquqi və elmi-metodiki materialların toplanılmasına və işlənib hazırlanmasına başlanmış və bu materialların nəşri və əhali arasında paylanması 2013-cü ildə nəzərdə tutulmuşdur.[75] Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyadan bildirilib ki, korrupsiyaya qarşı yeni qanunvericilik toplusunun nəşri ilə bağlı hazırlıqlar başa çatmaq üzrədir. Qurum tərəfindən müntəzəm olaraq maarifləndirici vəsaitlər nəşr edilir. Metodologiya üzrə 6 baldan 3 bal.

1 saylı cədvəldə MFP-da bəndlər üzrə tədbilərin icra vəziyyəti azalan xətt üzrə ballar və faizlərlə əks olunub. Cədvlər № 1- Əlavə olunur.

## MFP-DA ICRASI 2012-CÜ ILDƏ BAŞA ÇATMASI NƏZƏRDƏ TUTULAN TƏDBIRLƏRIN ICRA VƏZIYYƏTI

MFP-da bənd üzrə tədbirlərin icrasının 2012-ci ildə başa çatması nəzərdə tutulub. Bu MFP-da nəzərdə tutulan tədbilərin faiz nisbəti ilə 1,6 faizi deməkdir. MFP-da aşağıdakı fəaliyyətlərin 2012-ci ildə həyata keçirilməsi nəzərdə tutulub:

Tədbir 12.6: Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında qanun layihəsinin hazırlanmasının sürətləndirilməsi. İcra: Azərbaycan Respublikası Prezidentinin Administrasiyası -2012-ci il.

Artıq Azərbaycan Respublikası Prezidenti Adminstrasiyası tərəfindən "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının qanun layihəsi hazırlanaraq parlamentə təqdim edilib. Bu fəaliyyət 100 faiz həyata keçirilib.

Tədbir 16.1: Lisenziyaların və icazələrin verilməsi şərtlərinin və müddətlərinin sadələşdirilməsinə dair təkliflərin təqdim edilməsi. İcra: Nazirlər Kabineti – 2012-ci il.

Lisenziyaların və icazələrin verilməsi şərtlərinin və müddətlərinin sadələşdirilməsinə dair təkliflərin hazırlanması istiqamətində hər-hansı işlərin görülməsi barədə məlumat almaq mümkün olmayıb. Nazirlər Kabineti bununla bağlı sorğunu cavablandırmayıb. davam etdirilir. Metodologiya üzrə 6 baldan 0 bal.

[74] http://www.genprosecutor.gov.az/?/az/news/view/460/
[75] http://economy.gov.az/media/pdf/Kor2012.pdf

## MFP-da icrası 2013-cü ildə başa çatması nəzərdə tutulan tədbilərin icra vəziyyəti

MFP-da 48 bənd üzrə tədbirlərin icrasının 2013-cü ildə başa çatması nəzərdə tutulub. Bu MFP-da nəzərdə tutulan tədbilərin faiz nisbəti ilə 38,4 faizi deməkdir. Monitorinq zamanı 48 bənddən 6 bənd üzrə (12,5 %) heç bir irəliləyişin olmadığı müəyyənləşib. 48 bənddən 13-də kiçik irəliləyiş qeydə alınıb. 3 bənd üzrə fəaliyyətlərin 83,33 faizi həyata keçirilib. 1 bənd üzrə isə fəaliyyətin 100 faiz həyata keçirildiyi aşkarlanıb. 4 bənd üzrə fəaliyyətlərin 66,66 faizinin yerinə yetirildiyi müəyyən olunub. 6 bənd üzrə fəaliyyətin 50 faizi həyata keçirilib. 1 bənd üzrə fəaliyyətlərin 44.4 faiz, 10 bənd üzrə fəaliyyətin 33,3 faizi icra olunub. 3 bənd üzrə 22, 2 faizi icra olunub. Ümimilikdə 14 bənd üzrə fəaliyyətlərin 50% və ya 50 % çoxunun icra edildiyi həyata keçirilidiyi müşahidə olunur. Bu isə 29,6 faiz deməkdir.

# NƏTİCƏLƏR

MFP-nın təsdiqlənməsindən ötən bir il müddətində MFP-də nəzərdə tutulan tədbilərin həyata keçirilməsi üçün ilkin addımlar atılıb. Monitorinq prosesi göstərdi ki, dövlət orqanları MFP ilə üzərlərinə düşən vəzifələrin yerinə yetirilməsi istiqamətində çox ləng addımlar atırlar. MFP-nın təhlili göstətir ki, tədbilərin həyata keçirilməsinin əsas hissəsi zaman etibarı ilə 2013-2014-cü illəri əhatə edir. Şərti olaraq 2013-cü il start ili hesab etmək olar. 2014-cü il isə bir çox tədbirlərin tamamlanmalı, yaxud əhəmiyyətli bir hissəsinin başa çatmalı olduğu ildir. İlin sonuna çox az müddət var və bu zaman 2013-cü ildə nəzərdə tutulan işlərin tamamlanması, ləngiyən fəaliyyətlərin sürətləndirilməsi üçün çox önəmlidir. 2013-cü ildəki ləngimələr sonrakı dövrlərdə öz neqativ nəticələrini verəcək. Bu isə öz növbədində MFP-nın uğurla icrasına bütövlükdə ciddi əngəllər yarada bilər. Aşağıda problemli və ilk növbədə diqqət yetirilməsli olam məsələlər öz əksini tapıb:

1. Monitorinq zamanı ilk növbədə diqqəti çəkən MFP üzrə 2013-cü ildə başa çatması nəzərdə tutulan fəaliyyətin həyata keçirilməsində dinamikanın zəif olmasıdır. Monitorinq zamanı verilən sorğuların bir çoxunda qeyd edilib ki, 2013-cü il başa çatmadığından MFP ilə nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi istiqamətində işlər yekunlaşmayıb, davam edir. Lakin nəzərə almaq lazımdır ki, ilin sonuna 3 aydan bir az çox müddət qalır və cavabdeh dövlət orqanları bu müddətdən maksimum yararlanmalıdırlar. İndiki halda 2013-cü il üçün nəzərdə tutulan tədbilərin 40 fazidən çoxunun 60-70 faiz icra olunacağı ehtimalı var.
2. Diqqətçəkən digər məqam isə görülən işlər barədə açıq məlumatların məhdudluğudur. Dövlət orqanları sorğularda konkret fəaliyyətlər barədə məlumat verirlər. Qanun layihələrinin, qaydaların, meyarların və s. layihələrinin, ilkin variantlarının hazırlanması barədə məlumatlar verirlər. Lakin bu barədə KİV-ə yaxud ictimaiyyətə dolğun informasiya verilmir. Eyni zamanda görünən budur ki, dövlət orqanları bu təşəbbüslərinin ictimai müzakirəsinə maraq göstərmirlər və qərarların qəbulu prosesinə vətəndaş cəmiyyəti institutlarını cəlb etməyə tələsmirlər. Görünür bu səbəbdən MFP üzrə tədbilərin həyata keçirilməsi ilə bağlı vətəndaş cəmiyyəti institutlarında yetərincə məlumat yoxdur. Bu da monitorinq prosesində özünü biruzə verir.
3. MFP üzrə fəaliyyətlərin icrası ilə bağlı dövlət qurumları arasında koordinasiyanın qənaətbəxş səviyyədə olmaması da diqqəti çəkir. Konkret bənd üzrə bir neçə icraçı qurum müəyyən edilsə də alınan cavablardan görünür ki, tədbilərin həyata keçirilməsi üzrə koordinasıya işinin daha səmərəli qurulmasına ciddi ehtiyac var.
4. Korrupsiya riski çox böyük olan sahələrdə, dövlət satınalmaları, tenderlərin keçirilməsi, şəhərslama və tikinti fəaliyyəti, hərracların keçirilməsi, daşınmaz əmlakla bağlı əməliyyatlar sahəsində korrupsiyaya qarşı mübarizə tədbirlərinin icrasında çox aşağı dinamika və irəliləyişin olmasıdır.
5. Eyni zamanda korrupsiyaya qarşı mübarizə ilə bağlı ali və orta ixtisas məktəblərinin, ixtisasartırma və tədris mərkəzlərinin proqramlarında korrupsiya ilə mübarizə haqqında tədris kurslarının təşkili ilə bağlı demək olar ki, nəzərəçarpacaq fəaliyyətin olmaması da diqqətdə saxlanılmalıdr. Həmçinin, Təhsil müəssisələrində idarəetmə mexanizminin təkmilləşdirilməsi, ali məktəblərdə imtahan prosesinin şəffaflığının, bununla bağlı şikayətlərin səmərli araşdırılması ilə bağlı nəzərdə tutulan tədbilərin icrası ilə bağlı zəruri addımalrın atılmaması ümumilikdə MFP-nın effektiv icrasına kölgə sala biləcək amillərdəndir.

6. MFP-da nəzərdə tutulan korrupsiyaya qarşı mübarizədə preventiv tədbilər və korrupsiya risklərini azalmasına yönəlik bir sıra tədbilərin icrasının ləngiməsi də nəzərə çarpır. İlk növbədə lisenziya və izacələrin verilməsinin sadələşdirilməsi, vergi bəyyannamələrinin təqdim edilməsinin dövrülüyünün azaldılması, səhiyyə sistemində icbari tibbi sığorta sisteminə keçid, lombardların və daşınmaz əmlak alğı-satqısı üzrə vasitəçilik xidmətləri göstərən fiziki və hüquqi şəxslərin fəaliyyət sahəsini tənzimləyən normativ hüquqi aktların layihələrinin hazırlanması istiqamətində hərəkətsizlik qeyd edilməlidir. Bu tədbilərin əksəriyyətinin icra müddəti 2013-2014-cü illərdə nəzərdə tutulub. Müvafiq dövlət qurumları nəzərə almalıdırlar ki, bu tədbilərin həyata keçirilməsi, hazırlanması zaman tələb edir və bunlarla bağlı addımların sürətləndirilməsinə ciddi ehtiyac duyulur.

7. Diqqət yetirilməli vacib məqamlardan biri də korrupsiya riski yüksək olan sahələrdə elektron xidmətlərin ləng tətbiq edilməsidir. Xüsusən elektron xidmətlər daha çox sənədlərin qəbulu ilə bağlı məhdudlaşır. Halbu ki, korrupsiyaya qarşı mübarizə baxımından xidmətlər tam şəkilldə tamamlanmalıdır. Xüsusən icazə və lisenziyalar, tenderlərin keçirilməsi, hərracların keçirilməsi, daşınmaz əmlakla bağlı əməliyyatlar sahəsində bu istiqamətdə addımlar çox böyük səmərə verərdi. Əks halda indiki şəkildə elektron xidmətlərin reallaşdırılması aruzuolunan səmərəni verməyəcəkdir.

8. Müsbət məqamlar kimi, müəllim və həkimlərin mərkəzləşdirilmiş qaydada müvafiq elektron proqram təminatı ilə test və müsahibə yolu ilə işə götürülməsi, Vakanat yerlər barədə əvvəlcədən sayt və mətbu orqanlarda məlumat verilməsidir.

9. Həmçinin vətəndaşların qəbulu ilə bağlı, elektron kargüzarlığın tətbiqi, etik davranış qaydaları ilə bağlı hesablatların verilməsi, sahibkarlıq subyektlərində yoxlamalrın vahid reystrinin təkmilləşdirilməsi istiqamətində atılan addımlar əhəmiyyətli irəliləyişlər kimi dəyərləndirilə bilər.

10. Eyni zamanda artıq Azərbaycan Respublikası Prezidenti tərəfindən "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının qanun layihəsi hazırlanaraq parlamentə təqdim edilməsi və qanun layihəsinin 3-cü oxunuşda təsdiqlənməsi sahibkarlıq mühitinin yaxşılaşdırılması istiqamətində əhəmiyyətli addım kimi qiymətləndirilməlidir.

11. Hüquqi aktların layihələrinin antikorrupsiya ekspertizasından keçirilməsi qaydalarının hazırlanması" istiqamətində irəliləyişin olması da təqdirəlayiq hal kimi vurğulanmalıdır.

12. Korrupsiyaya Qarşı Mübarizə İdarəsi tərəfindən yarımillik və illik hesbatalrın açıqlanmsı, "161-qaynar xəttin" işinin təkmilləşdirilməsi ilə bağlı görülən işlər də müsbət xarakterizə edilə biləcək addımlar sırasında qeyd edilə bilər.

## TÖVSİYYƏLƏR

**1.** Korrupsiyaya Qarşı Mübarizə üzrə Komissiya tərəfindən MFP-nın icrası ilə bağlı koordinasiya fəaliyyətlərinin genişləndirilməsinə və nəzarətin artırılmasına ciddi ehtiyac var. Elə mexanizm yaradılmalıdir ki, Komissiya yalnız ilin sonunda, hesbatlar təqdim olunan zaman deyil, vaxtaşırı görülən tədbilər, həyata keçirilən fəaliyyətlər barədə operativ məlumat ala bilsin. Bu hansı sahədə ləngimələrin olması, onların səbəbləri barədə vaxtında məlumat almağa və əlavə tədbilər görmək üçün səylər göstərilməsinə imkan yaradar.

**2.** Yuxarıd qeyd olunan və korrupsiya riski yüksək olan sahələrdə MFP ilə nəzərdə tutulan tədbilərin həyata keçirilməsinin sürətləndirilməsi vacibdir. Korrupsiyaya Qarşı Mübarizə üzrə Komissiya da bu tədbilərin həyata keçirilməsinin sürətləndirilməsi üçün nəzarəti gücləndirməlidir. Vətəndaş cəmiyyəti institutları vəkillik və təşviq səylərini ilk növbədə məhz bu istiqamətə yönəltməlidirlər.

**3.** MFP-da nəzərdə tutulan korrupsiyaya qarşı mübarizədə preventuv tədbilər və korrupsiya risklərini azalmasına yönəlik bir sıra tədbilərin ləngiməsi, korrupsiya riski yüksək olan sahələrdə elektron xidmətlərin ləng tətbiqi diqqət mərkəzində saxlanılmalı və bu istiqamətdə işlərin sürətləndirilməsi üçün Korrupsiyaya Qarşı Mübarizə üzrə Komissiya, vətəndaş cəmiyyəti institutları müvafiq səylər göstərməlidirlər. QHT-lər, KİV bu məsələni korrupsiyaya qarşı mübarizə aspektində aktual məsələlər kimi gündəlikdə qalması üçün səylər göstərməlidirlər.

**4.** Sahibkarlıq mühitinin diaqnostikası üçün metodologiyanın hazırlanmsı və buna uyğun olaraq da qiymətləndirmə aparılması da korrupsiyaya qarşı mübarizə istiqamətində çox əhəmiyyətli addım olardı.

**5.** Maraqlar toqquşmasının qarşısının alınması və maliyyə xarakterli məlumatların təqdim edilməsinin konkret mexanizmlərinin yaradılması istiqamətində işlərin sürətləndirilməsinə çox ciddi ehtiyac var.

**6.** Korrupsiyaya qarşı mübarizə ilə bağlı ali və orta ixtisas məktəblərinin, ixtisasartırma və tədris mərkəzlərinin proqramlarında korrupsiya ilə mübarizə haqqında tədris kurslarının təşkili ilə bağlı ciddi addımlar atılması antikorrupsiya mədəniyyətinin formalaşmasında çox mühüm addımdır. Bu sitiqamətdə hərəkətsizlik ümumilikdə korrupsiyaya qarşı mübarizə səylərinə neqativ təsir göstərir. Müvafiq qurumlar, Təhlsil Nazirliyi, Korrupsiyaya Qarşı Mübarizə üzrə Komissiya vaxt itirmədən bu istiqamətdə irəliləyişə nail olmaq üçün səylər göstərməlidirlər.

**7.** Korrupsiyaya qarşı mübarizə tədbilərinin həyata keçirilməsi, MFP-da nəzərdə tutulan fəaliyyətin icrası zamanı vətəndaş cəmiyyəti institutları ilə əməkdaşlıq genişləndirilməlidir. Xüsusən qanun layihələri, qayda və meyarların hazırlanması, tənzimləyici alətlərin tətbiqi sahəsində bu əməkdaşlıq çox böyük fayda verərdi. İndiki halda bu istiqamətdə müəyyən irəliləyiş olsa da, əməkdaşlığın daha da dərinləşməsinə ciddi ehtiyac var. MFP üzrə tədbilərin həyata keçirilmısinə məsul qurumların bu istiqamətdə konkret addımlar atmasına ehtiyac var.

**8.** Korrupsiyaya qarşı mübarizə sahəsində fəaliyyət göstərən vətəndaş cəmiyyəti institutlarına qrant vəsaitlərinin ayrılması, kursların təşkili, maarifləndirici fəaliyyətin həyata

keçirilməsi üçün sifarişlərin verilməsi korrupsiyaya qarşı mübarizə siyasətinin cəmiyyət tərəfindən dəstəklənməsi, islahatlar üçün əlverişli zəmin yaradılmasına çox böyük töhfə olardı. İndiki halda yerli QHT-lərin antikorrupsiya təşəbbüsləri daha çox xarici donorlar tərəfindən maliyyələşdirilir və maddi resursların azlığı onlara öz potensialını tam reallaşdırmağa imkan vermir.

**9.** Dövlət orqanalrının "qaynar xəttləri"nin fəaliyyəti üçün vahid metodologiya hazırlanması ilə bağlı işlərin sürətləndirilməsinə və tez bir zamanda yekunlaşdırılmasına ciddi ehtiyac var. Hazırda "qaynar xəttlər" vətəndaşlarla əks-əlaqənin yaradılması və korrupsiya hüquqpozmaları barədə əsas məlumat mənbəyi rolunu oynayır. Bunu nəzərə alaraq "Qaynar xətt" lər üçün vahid standartlar hazırlanmsı çox önəmli vəzifə kimi qarşıda durur. Bu sahədə vətəndaş cəmiyyəti institutlarının təcrübəsindən də faydlanmaq yararlı olardı. Bir çox QHT-lər uzun müddətdir ki, pulsuz hüquqi yardım, korrupsiya hüquqpozmalrı barədə məlumatların qəbulu və onalrın araşdırılması, istehlakçı hüquqları ilə bağlı "Qaynar xətt" xidməti yaradıblar və bu sahədə çox böyük təcrübə əldə ediblər

**10.** Korrupsiyaya qarşı mübarizə ilə bağlı məlumatlandırma və maarifləndirmə fəaliyyətlərinin miqyasının genişləndirilməsinə ciddi ehtiyac hiss olunur. Son illər bu istiqamətdə müəyyən təşəbbüslər edilir. Lakin bu kifayət deyil və dövlət orqanalrı MFP ilə bu istiqamətdə müyyənləşdirilən təbilərin icarsı üçün daha çox səy göstərməlidirlər. Monitorinq prosesi göstərir ki, bu sahəyə gərəkən diqqət göstərilmir.

**11.** Məlumatlardan məlum olur ki, bir icraçısı olan tədbirlərin icra olunması daha çox ehtimal olunur. Tədbirlərin icrasına məsul qurumların təyin olunmasının daha aydın sistemi bu qurumlara MFP-nın nəzərdə tutlumuş müddətlərdə və daha yaxşı icra ediməsinə müsbət stimul verər.

## Əlavə 1. İstiqamətlərin icrası

**Cədvəl 1: MFP hər bir istiqamətinin komponent sayı və onların icrasında olan inkişafın qiymətləndirilməsi**

| İstiqamət | **Komponentlərin sayı** | Müşahidə edilmiş icra |
|---|---|---|
| 1. **. Korrupsiyaya qarşı mübarizə üzrə qanunvericilik bazasının təkmilləşdirilməsi** | 2 | 1,5 |
| 2. **Ərizə və şikayətlərə baxılması işinin təkmilləşdirilməsi** | 5 | 3,3 |
| 3. **Cinayət təqibi sahəsində qanunvericiliyin təkmilləşdirilməsi** | 5 | 3,1 |
| 4. **Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasının fəaliyyətinin təkmilləşdirilməsi** | 4 | 2,3 |
| 5. **Azərbaycan Respublikasının Baş Prokuroru yanında Korrupsiyaya qarşı mübarizə İdarəsinin fəaliyyətinin təkmilləşdirilməsi** | 3 | 1,7 |
| 6. **Cinayət yolu ilə əldə edilmiş gəlirlərin leqallaşdırılmasının qarşısının alınması və bu sahədə institusional mexanizmlərin möhkəmləndirilməsi** | 5 | 2,5 |
| 7 **Dövlət qulluğuna dair qanunvericiliyin və institusional mexanizmlərin təkmilləşdirilməsi** | 3 | 1,43 |
| 8. Improvement of activities of the state servants and increase of their workmanship | 6 | 2,7 |
| 9. **Maraqlar toqquşmasının qarşısının alınması və maliyyə xarakterli məlumatlar haqqında bəyannamələrin təqdim edilməsi** | 3 | 1,2 |
| 10. **Etik davranış qaydalarının təkmilləşdirilməsi** | 5 | 1,9 |

| | | |
|---|---|---|
| 11. **Bələdiyyələrin fəaliyyətinin təkmilləşdirilməsi** | 3 | 1,1 |
| 12. **Sahibkarlıq fəaliyyəti üçün əlverişli mühitin təkmilləşdirilməsi** | 7 | 2,3 |
| 13. **Audit xidmətlərinin təkmilləşdirilməsi** | 4 | 1,3 |
| 14. **Dövlət satınalmalarının təkmilləşdirilməsi və şəffaflığın artırılması** | 8 | 2,7 |
| 15. **Daşınmaz əmlakın dövlət reyestrinin aparılması sahəsində şəffaflığın artırılması** | 4 | 1,3 |
| 16. **Lisenziya və icazə vermə, sertifikatlaşdırma işinin təkmilləşdirilməsi** | 4 | 1,3 |
| 17. **Vergi nəzarəti və yoxlamalarının səmərəliliyinin artırılması** | 5 | 1,7 |
| 18. **Özəlləşdirmə prosesində şəffaflığın artırılma**sı | 2 | 0,6 |
| 19. **Gömrük tarif və rüsumlarının toplanması prosesinin təkmilləşdirilməsi** | 4 | 1,2 |
| 20. **Şəhərsalma və tikinti qanunvericiliyinin və bu sahədə inzibati idarəçiliyin təkmilləşdirilməsi** | 4 | 1,1 |
| 21. **Təhsil müəssisələrində idarəetmə mexanizminin təkmilləşdirilməsi** | 7 | 1,8 |
| 22. **Səhiyyə sahəsində idarəetmə mexanizminin təkmilləşdirilməsi** | 6 | 1,5 |
| 23. **Dövlət müəssisələrində korporativ idarəetmə prinsiplərinin tətbiqinin təkmilləşdirilməsi** | 3 | 0,7 |
| 24. **Kommunal xidmətlərin təkmilləşdirilməsi** | 4 | 0,8 |
| 25. **Əmək və sosial təminat sahəsində idarəetmə mexanizminin təkmilləşdirilməsi** | 7 | 1,2 |
| 26. **Korrupsiyaya qarşı mübarizə sahəsində** | 3 | 0,5 |

| | | |
|---|---|---|
| **beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsi** | | |
| 27. **Korrupsiyaya qarşı mübarizə sahəsində vətəndaş cəmiyyəti institutları ilə əməkdaşlığın inkişaf etdirilməsi** | 2 | 0,2 |
| 28. **Korrupsiyaya qarşı mübarizə ilə bağlı maarifləndirmə** | 6 | 0,2 |

**Cədvəl 2: Hər bir istiqamətin icra faizi, %.**

| **Istiqamət** | **İcra faizi** |
|---|---|
| 26. Korrupsiyaya qarşı mübarizə sahəsində beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsi | 78% |
| 5. Azərbaycan Respublikasının Baş Prokuroru yanında Korrupsiyaya qarşı mübarizə İdarəsinin fəaliyyətinin təkmilləşdirilməsi | 67% |
| 13. Audit xidmətlərinin təkmilləşdirilməsi | 63% |
| 27. Korrupsiyaya qarşı mübarizə sahəsində vətəndaş cəmiyyəti institutları ilə əməkdaşlığın inkişaf etdirilməsi | 58% |
| 6. Cinayət yolu ilə əldə edilmiş gəlirlərin leqallaşdırılmasının qarşısının alınması və bu sahədə institusional mexanizmlərin möhkəmləndirilməsi | 58% |
| 24. Kommunal xidmətlərin təkmilləşdirilməsi | 50% |
| 12. Sahibkarlıq fəaliyyəti üçün əlverişli mühitin təkmilləşdirilməsi | 48% |
| 7. Dövlət qulluğuna dair qanunvericiliyin və institusional mexanizmlərin təkmilləşdirilməsi | 44% |
| 22. Səhiyyə sahəsində idarəetmə mexanizminin təkmilləşdirilməsi | 39% |
| 25. Əmək və sosial təminat sahəsində idarəetmə mexanizminin təkmilləşdirilməsi | 38% |
| 28. Korrupsiyaya qarşı mübarizə ilə bağlı maarifləndirmə | 36% |
| 2. Ərizə və şikayətlərə baxılması işinin təkmilləşdirilməsi | 33% |
| 4. Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasının fəaliyyətinin təkmilləşdirilməsi | 33% |
| 10. Etik davranış qaydalarının təkmilləşdirilməsi | 33% |

| | |
|---|---|
| 11. Bələdiyyələrin fəaliyyətinin təkmilləşdirilməsi | 33% |
| 17. Vergi nəzarəti və yoxlamalarının səmərəliliyinin artırılması | 33% |
| 19. Gömrük tarif və rüsumlarının toplanması prosesinin təkmilləşdirilməsi | 33% |
| 9. Maraqlar toqquşmasının qarşısının alınması və maliyyə xarakterli məlumatlar haqqında bəyannamələrin təqdim edilməsi | 29% |
| 16. Lisenziya və icazə vermə, sertifikatlaşdırma işinin təkmilləşdirilməsi | 29% |
| 1. Korrupsiyaya qarşı mübarizə üzrə qanunvericilik bazasının təkmilləşdirilməsi | 27% |
| 8. Improvement of activities of the state servants and increase of their workmanship | 26% |
| 15. Daşınmaz əmlakın dövlət reyestrinin aparılması sahəsində şəffaflığın artırılması | 25% |
| 3. Cinayət təqibi sahəsində qanunvericiliyin təkmilləşdirilməsi | 23% |
| 21. Təhsil müəssisələrində idarəetmə mexanizminin təkmilləşdirilməsi | 20% |
| 14. Dövlət satınalmalarının təkmilləşdirilməsi və şəffaflığın artırılması | 17% |
| 23. Dövlət müəssisələrində korporativ idarəetmə prinsiplərinin tətbiqinin təkmilləşdirilməsi | 17% |
| 18. Özəlləşdirmə prosesində şəffaflığın artırılması | 8% |
| 20. Şəhərsalma və tikinti qanunvericiliyinin və bu sahədə inzibati idarəçiliyin təkmilləşdirilməsi | 4% |